


## "Şuşa ili" ölkəmiz üçün yeni və möhtəşəm uğurlar vəd edir

5

# İlham Əliyev

## İrəvana qarşı yeni təsiretmə mexanizmi işlədir

4

Səs
№ 026 (6467) 11 fevral 2022-ci il. Qiyməti 60 qəpik




Nikol Paşinyan 108 nəfər azərbaycanlı qalıqlarının Azərbaycana təhvil verildiyini deməklə Birinci Qarabağ müharibəsindəki erməni vəhşiliklərini və s. faktları da etiraf etmiş oldu!

# Ermənistanda yeni kapitulyasiya qorxusu



13

# Diqqət: Ürək çatışmazlığına işarə edən GİZLİ SİMPTOMLAR!



Ürək orqanizmdə nasos funksiyasını yerinə yetirərək qanı orqan və sistemlərə çatdırır. Qan orqanizm boyu dövr edir, orqanizmi oksigen və qidalı maddələrlə təmin edir. Ürəyin nasos funksiyası pozulduqda ürək çatışmazlığı inkişaf edir. Bu zaman orqanızm ona lazım olan miqdarda okdigen və qidalı maddələri...

16



## YAP Mərkəzi Aparatında

### partiyanın Təftiş Komissiyasının üzvü Aydın Hüseynovun 60 illik yubileyi münasibətilə görüş keçirilib

Fevralın 10-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynovun 60 illik yubileyi münasibətilə görüş keçirilib. Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzula...

4



## Rus ekspert: "Ermənistan xuliqan kimi davranır"

15

Rusiyanın nüfuzlu politoloqu "Milli müdafiə" jurnalının baş redaktoru "Moskva-Baku" portalına müsahibəsində Fransanın Azərbaycanla...




## Media Qanunu: yeni çağırışlara yeni cavab

8

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Media haqqında" Azərbaycan Respublikası Qanununun təsdiq...

# Azərbaycan və Moldova daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir

*Prezident İlham Əliyev Moldovanın Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya nazirini qəbul edib*

**Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popeskunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ötən ilin dekabrında Moldova Prezidenti Maya Sandu ilə Brüsseldə keçirdiyi görüşü məmnunluqla xatırlayıb və ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Niku Popesku Moldova Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Moldovanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş edib.

Nazir Niku Popesku ölkələrimiz arasında diplomatik münasibətlərin olduğu 30 ilə yaxın müddətdə həmrəylik prinsipindən çıxış edərək Azərbaycan və Moldovanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb. Niku Popesku iqtisadi, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, enerji sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib, bu sahələrdə konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.



## Rəsmi xronika

Prezident İlham Əliyev Rövnəq İbrahim oğlu Abdullayevin Dövlət Neft Şirkətinin prezidenti vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev R.İ.Abdullayevin Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilməsi haqqında Sərəncam verib. Sərəncamla Rövnəq İbrahim oğlu Abdullayev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilir.

***

Prezident İlham Əliyev Rövşən Çingiz oğlu Nəcəfin Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Rövşən Çingiz oğlu Nəcəfin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin edilməsi haqqında Sərəncam verib.

***

Prezident İlham Əliyev Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Elnur Aydın oğlu Əliyevin Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini təyin edilməsi haqqında Sərəncam verib. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Dövlət başçısının digər Sərəncamı ilə Elnur Aydın oğlu Əliyev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilib.

# Milli Qoşulmama Hərəkatı

## Modelinin Simulyasiya Konfransı işə başlayıb

**Dünən Bakıda Milli Qoşulmama Hərəkatı Modelinin Simulyasiya Konfransı işə başlayıb. Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin Azərbaycan Milli Bölməsinin təşkilatçılığı ilə ADA Universitetində keçirilən konfrans çərçivəsində "Milli Qoşulmama Hərəkatı Modeli" stimulyasiya məşğələsi təşkil olunub.**




Konfransın təşkilində məqsəd cəmiyyətdə, xüsusən də gənclər arasında Qoşulmama Hərəkatının fəaliyyəti barədə təsəvvürlərin artırılması, eləcə də Hərəkatın Gənclər Şəbəkəsinin fəaliyyətinin gənclər arasında daha geniş təbliğidir.

Tədbirdə çıxış edən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini təşkilatın təməl prinsipləri olan tarixi Bandunq prinsipləri üzərində qurduğunu bildirib. Deyib ki, ölkəmizin bu təşkilatda fəal rolu və sədrliyi həm üzv dövlətlər, həm də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin beynəlxalq münasibətlərdə multilateralizmi təşviq etmək baxımından gözəl platforma olduğunu qeyd edən nazir tədbirin təşkilinə görə ADA Universitetinin rəhbərliyinə, həmçinin konfransda iştirak etdikləri üçün Hərəkata üzv dövlətlərin Bakıdakı səfirlərinə təşəkkürünü bildirib.

Ceyhun Bayramov qeyd edib ki, bu tədbir gənclərin gələcəyin liderləri kimi beynəlxalq münasibətlərin qurulması barədə məlumat almaları baxımından gözəl təcrübə olacaq. Nazir diqqətə çatdırıb ki, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində irəli sürülən təşəbbüslərə xüsusi diqqət yetirir. Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər təşkilatın prinsiplərinə uyğun olaraq qəbul edilib və təqdirəlayiqdir.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov diqqətə çatdırıb ki, Fond azərbaycanlı gənclərin beynəlxalq tədbirlərdə, konfranslarda və müsabiqələrdə iştirakının maliyyələşdirilməsini həyata keçirib. Fond tərəfindən indiyədək 400-dən çox gəncin xaricdə keçirilən müxtəlif tədbirlərdə iştirakına dəstək verilib. "Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin yaradılması gündəlikdə duran bir çox məsələlərin həll edilməsində, o cümlədən dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına töhfə verəcək. Bizim 2022-ci il üçün ambisiyalı fəaliyyət planımız var və inanırıq ki, bu tədbir həmin fəaliyyət planının başlanğıcı olacaq", - deyə icraçı direktor qeyd edib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə cəmiyyətin həyatında gənclərin rolunu qeyd edərək onlara uğurlar arzulayıb. Gənclərin maraqlı və faydalı layihələrdə iştirak etmələrinin vacibliyini qeyd edən prorektor onları fəal olmağa çağırıb. Mərasimin sonunda Gənclər Şəbəkəsinin Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilən videoçarx nümayiş olunub.

Üç gün davam edəcək Milli Qoşulmama Hərəkatı Modeli Simulyasiya Konfransında Qoşulmama Hərəkatının yüksəksəviyyəli iclaslarının simulyasiyası həyata keçiriləcək. İştirakçılar Qoşulmama Hərəkatına üzv dövlətlərin nüfuzlu şəxslərinin rollarını icra edərək qlobal problemlərə həll yolları təklif edəcəklər.



# RF XİN "3+3" konsultativ regional platformanın təsis iclasını uğurlu hesab edir

***2021-ci il dekabrın 10-da təşkil olunan "3+3" konsultativ regional platformanın təsis iclasını uğurlu hesab edirəm. Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bu sözləri TASS agentliyinə müsahibəsində söyləyib.***

Diplomat deyib: "Biz görüşün yekunlarına əsasən tərəfdaşlarla şərtləşdik ki, formatın fəaliyyətini qarşılıqlı maraq doğuran və regionda etimad tədbirlərinin gücləndirilməsinə yönəldilən məsələlər üzərində cəmləşdirək. Ticari-iqtisadi, nəqliyyat və mədəni-humanitar əlaqələrin inkişafı, həmçinin ümumi çağırışlara və təhdidlərə müqavimət həmin məsələlər sırasındadır".

A.Rudenkonun sözlərinə görə, tərəflər iclasları müntəzəm əsasda ildə azı 2 dəfə keçirməyi qərara alıblar. Növbəti tədbirin keçirilməsi üçün artıq bir neçə ölkədən müraciətlər daxil olub. "Gürcüstana gəlincə, bütün iştirakçılar onun "3+3" formatına birləşəcəyinə ümidvar olduqlarını ifadə ediblər. Tbilisi üçün qapı açıq qoyulur. Vacibdir ki, regional işlər Cənubi Qafqazın bütün ölkələrinin iştirakı ilə müzakirə olunsun", - deyə Rusiyanın xarici işlər nazirinin müavini qeyd edib.

**Fevralın 4-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Fransa prezidenti Emmanuel Makronun iştirakı ilə Azərbaycan prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri arasında videoformatda keçirilən görüş bir sıra məsələlərə aydınlıq gətirir və bu baxımdan sözün həqiqi mənasında diqqətə layıqdır. Diqqəti çəkən ən vacib məqam isə ermənilərin hər zaman havadarı olan qüvvələrin reallıq qarşısında, məhz Azərbaycanın yaratdığı reallıq qarşısında təslim olmasıdır. Bir zamanlar erməni həyasızlığını müdafiə edən, separatçıların törətdikləri və törətməkdə olduqları "od-alovu" körükləyənlərin indi tamamilə fərqli mövqe sərgilədiyi görüş zamanı özünü dərhal biruzə verdi. Görüş zamanı qaldırılan mövzular və müzakirə edilən məsələlərin məzmununa baxanda açıq-aşkar görünür ki, videoformatda keçirilən görüş bu görüş, sanki 14 dekabr tarixində Brüssel danışıqlarında əldə olunan razılaşmalar üzrə işlərin gedişatının təftişi, eləcə də nəzarət xarakteri daşıyırdı.**



# Azərbaycan və yaratdığı reallıqlar qalib gəldi!

Göründüyü kimi, Soçi və Brüsseldə keçirilmiş görüşlərin mahiyyətinə uyğun olaraq bu dəfə də Minsk Qrupuna istinad yeri almayıb və Şarl Mişel, eləcə də Emmanuel Makronun birgə bəyanatı üzrə sənəddə də Minsk Qrupuna istinad yoxdur. Bu isə ondan xəbər verir ki, bir zamanlar mövcud olan Qarabağ məsələninin həllini, ən azından danışıqlarla nizama salınmasını üzərinə götürən, amma onillər boyu yuxuda olan bir qurum, Minsk Qrupu yada belə düşməyib. Əgər yada düşməyibsə, deməli, bu quruma, onun fəaliyyətinə ehtiyac belə duyulmur. Əslində, bu fakt özü bir sıra məqamları üzə çıxarır, lap dəqiq desək, məsələnin nə yerdə olduğunu da, necə yanaşıldığını da, Şarl Mişeli və Emannuel Makronun da nə mövqedə olduğunu ortaya qoyur.

Ələlxüsus, ermənipərəstliyi ilə seçilən Makron kimi birinin, erməni faktorunun təsirləri altında olan Fransa kimi dövlətin prezidentinin son mövqeyi, yəni görüş zamanı sərgilədiyi mövqe heç də əvvəlkilərlə üst-üstə düşmür və tamamilə fərqli olduğu görünür. Şarl Mişel və Emmanuel Makronun birgə bəyanatı üzrə sənəddə Dağlıq Qarabağ münaqişəsi və hətta Qarabağ kimi ifadənin belə olmaması bunu təsdiq edir. Məsələ burasındadır ki, görüş zamanı edilən müzakirələr, qaldırılan məsələlər Qarabağ mövzusunun tamamilə gündəlikdən çıxdığını, Minsk Qrupuna ehtiyac belə olmadığını göstərir və ən çox diqqəti çəkən də odur ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olan Fransa bu reallığı qəbul edir. Bəli, Azərbaycanın yaratdığı reallığı qəbul edir, bununla razılaşmaqdan başqa çıxış yolu görmür. Bir sözlə, Makron bir növ diz çökür və bu heç də təsadüfi deyil, Azərbaycanın yaratdığı reallığa görədir. Bu, Azərbaycanın, ölkə rəhbəri, cənab Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsidir.

Diqqət çəkən daha bir, özü də ən həssas məqam isə Makronun, Fransa prezidentinin görüşə ümumiyyətlə, Minsk Qrupunun həmsədr ölkəsi kimi yox, Avropa İttifaqına sədrliyi qəbul etmiş ölkə kimi qatılmasıdır. Yəni, Fransa məhz Makronun təmsilçiyi ilə bu görüşə əvvəlcədən elə bu məramda, sərgilədiyi mövqedə hazırlıqlı olub. Bir sözlə, bəlli olur ki, Fransa artıq çoxdandır ki, reallığı, ölkəmizin yaratdığı reallığı qəbul edib və görüşlərdə də bu reallığı qəbul edərək bundan sonra iştirak edəcək. Təbii ki, qeyd olunan erməni faktoruna, Fransada ermənilərin təsir dairəsinə, ən azından seçkilərə təsir etmək imkanına görə onların haqsız olan mövqeyini dəstəkləyən Makron kimi bir ölkə rəhbəri də bunun fərqindədir və indi diz çökməkdən başqa çıxış yolunun olmadığını görməkdədir.

Görəndə ki, bir zamanlar ermənilərin uydurduqları "status" deyilən həyasızlığa şərik olan Makron indi artıq münaqişə barədə danışmır, dərhal bir sual ortaya çıxdı ki, bu həmin o Makrondur, yoxsa yox? Şübhəsiz ki, Makron elə özüdür ki, var, həmin odur, amma vəziyyət həmin o vəziyyət deyil, onun ağlında, yaddaşında olan keçmişdə qalıb və yeni reallıqlar yaradılıb, özü də ölkəmiz tərəfindən. Bu halda da Makronun öz əvvəlki mövqeyində, erməni həyasızlığına şərik olmaq "məqamında" inad etməsi çox gülünc görünür, hansıki bunu Fransa prezidenti özü də yaxşıca anlayıb. Anlayıb ki, ermənilər bundan sonra nəyə isə nail ola bilməyəcəklər, buna Azərbaycan kimi qüdrətli dövlət imkan verməyəcək və onun özünün timsalında kimlərinsə həqiqəti, reallığı danması heç bir nəticə verən deyil. Nəticə uzaq başı haqsızları, həyasızlıqla yalanlar uyduranları dəstəkləyən biri kimi onun yadda qalmasını vəd edə bilər ki, bunu da Fransa prezidentinin arzulaya biləcəyi inandırıcı deyil. Doğrudur, Makron adı eşidilən kimi, erməni yalanlarının bir müdafiəçisi göz önünə gəlir, amma bu o demək deyil ki, istənilən halda Fransa prezidenti sinəsini qabağa verib çürük erməni ideologiyasını sona qədər dəstəkləyəcək. Görünən odur ki, Makron və onun timsalında bütün ermənipərəstlər yalançı, həyasız erməni oyunlarından bezliblər və indi də bu oyunlardan kənarlaşmaqdadırlar. Amma ən çılpaq şəkildə görünən odur ki, Azərbaycan həqiqətləri qarşısında Makron kimi ermənipərəst diz çöküb, razılaşmaqdan başqa yolu qalmayıb. Bir sözlə Azərbaycanın yaratdığı reallıqlar ermənipərəstləri diz çökdürüb.




Ölkəmizin yaratdığı reallıqları dərk edənlər Brüsseldə təsbit olunmuş uğurlu sülh gündəliyi ilə razılaşmalı olurlar və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələləri dəstəkləmək məcburiyyətindədirlər. Artıq sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması prosesinə kimsələrin maneçilik törədə bilməyəcəyini hər kəs, xüsusən də ermənipərəstlər belə dərk etməkdədirlər.

UNESCO-nun Azərbaycana və Ermənistana missiyasının göndərilməsinə dair razılığın ifadə olunması isə öz növbəsində illərdir erməni vandalizminin törətdiyi vəhşiliklərin nəticələrini beynəlxalq müstəviyə çıxarmaq və həllini tələb etmək üçün şəraitin yaranması deməkdir. Əslində, bu zamana qədər erməni vandallığını, vəhşiliyini görməməzlikdən gələnlərin, ermənilərin mədəni, tarixi abidələri dağıtmalarına göz yumanların artıq bundan sonra belə bir şansı da qalmır. Yəni, maddi-mədəniyyət abidələrinə vəhşi münasibət göstərən, bu abidələri dağıdan, yerlə yeksan edənlərin bu kimi əməllərini örtbasdır etmək bundan sonra ermənipərəstlərin özləri üçün də müşkülə çevrilir. UNESCO nümayəndələrinin Azərbaycana səfər edəcəyi və işğaldan azad olunmuş ərazilərdə erməni tərəfinin mədəniyyət abidələrinə vurduğu ziyanı müəyyənləşdirəcəyi təqdirdə, nə ermənilərin, nə də onların havadarlarının bunu təkzib etmək imkanları qalmayacaq. Hər şeydən öncə, ilk növbədə erməni vandalizmi beynəlxalq səviyyədə nümayiş etdiriləcək, tanınacaq. Bu zamana qədər özlərini "mədəni" göstərən ermənilərin əslində vəhşi bir toplum olduğu hamıya bəyan ediləcək. Heç şübhəsiz ki, bundan sonra da ermənilər özlərini mədəni göstərməyə çalışa bilərlər, buna həyasızlıqları şərait yarada bilər, amma buna kimsənin inanacağına artıq şərait yarana bilməz.

Göründüyü kimi, Cənubi Qafqazda sabitliyin tez bir zamanda təmin olunması Avropa üçün həyati əhəmiyyət kəsb etməyə başlayıb. Bunu videoformatda keçirilən görüşdə səsləndirilən fikirlər də təsdiqləyir və bu, Avropa İttifaqının prezidenti Şarl Mişel, eləcə də Fransa prezidenti Emmanuel Makronun dördlü görüşə dair bəyanatlarında da açıq şəkildə əksini tapıb. Məsələ burasındadır ki, Fransanın tutduğu hazırkı mövqe artıq ermənipərəstlik deyil, Avropa maraqlarının təmin olunmasına hesablanıb. Əks halda, Fransanın tənzimləmə prosesində fəal iştirakı ağlasığan deyildi. Bəli, reallıqlar göz önündədir və bunu biz gördüyümüz kimi Ermənistan tərəfi də görür, ermənilərin havadarları da. İndi bu reallıqları görməyənlər problemi öz baxışlarında axtarmalıdırlar, bilməlidirlər ki, Azərbaycan və yaratdığı reallıqlar qalib gəldi.

***İnam Hacıyev***

ANALİTİK+AKTUAL

# İlham Əliyev

## İrəvana qarşı yeni təsiretmə mexanizmi işlədir




Bəlli olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan bugünlərdəki çıxışlarının birində bəyan etdi ki, İrəvan Birinci Qarabağ müharibəsində həlak olmuş 108 azərbaycanlının qalıqlarını Bakıya təhvil verib. Paşinyanın səsləndirdiyi bəyanatının ilk öncə publikaya işlədiyini demək mümkündür. Çünki son vaxtlar Azərbaycanın Birinci Qarabağ müharibəsində həlak olan və itkin düşən 4 minə yaxın vətəndaşlarının taleləri ilə bağlı qətiyyətli tələbləri bilavasitə beynəlxalq ictimaiyyətin də diqqətinə çatdırılır. Yəni İrəvanın bu məsələdə yaxasını kənara çəkmək şansları ümumiyyətlə yoxdur. Məhz bunun səbəbidir ki, Nikol Paşinyan dərhal qeyd edilən bəyanatını verib. Amma söz yox ki, hər şey təkcə bu bəyanatla başa çatmır. Çünki ortada açıq qalan və veriləsi cavablarını gözləyən çoxsaylı suallar dayanmaqdadır.

Paşinyan cavab versin görək, həlak olan, yaxud iitkin düşən Azərbaycan vətəndaşları Ermənistana aparılaraq oradamı basdırılıblar?!

Beləliklə, Birinci Qarabağ müharibəsi Ermənistanın ərazisində deyil, məhz Qarabağda baş verib. Onda Paşinyan cavab versin görək, həlak olan, yaxud iitkin düşən Azərbaycan vətəndaşları Ermənistana aparılaraq oradamı basdırılıblar?! Yaxud, geri qaytarılan qalıqlar Azərbaycan ərazilərində müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingentinin məsul olduqları yerlərdə basdırılıblar?

İrəvan Azərbaycana təhvil verdiyi qalıqların arasında qadın və uşaqların da sümüklərinin olmasından təlaş keçirir

Bu zaman erməni tərəfi dolayısı ilə etiraf etmiş olur ki, həmin qalıqlar barədə 26 il xəbərdar imiş və onları Azərbaycan tərəfinə bilərəkdən təhvil verməyib! Yaxud, hansı səbəblərə görə qalıqların təhvil verilməsi prosesi ictimaiyyətin göz qarşısında baş verməyib?! Axı Azərbaycan erməni diversantlarını İrəvana publik şəkildə, yəni ictimaiyyətin gözləri qarşısında Ermənistana təhvil verir, özü də Aİ-nin, Fransanın Ermənistandakı səfirləri onları Zvartnots hava limanında bayraqlarını açaraq qarşılayırlar (?!).

Əgər belədirsə, İrəvan dünya ictimaiyyətindən hansı əməllərini gizlətməyə cəhd edir? Ehtiyat edir və təlaşlanır ki, Azərbaycana təhvil verdiyi qalıqların arasında qadın və uşaqların da sümükləri var?

> Nikol Paşinyan 108 nəfər azərbaycanlı qalıqlarının Azərbaycana təhvil verildiyini deməklə Birinci Qarabağ müharibəsindəki erməni vəhşiliklərini və s. faktları da etiraf etmiş oldu!

Digər sual: əgər 108 insanın qalıqlarını təhvil veriblərsə bu yallnız bir kütləvi məzarlıqdan çıxarılmış saydırmı?! Yoxsa həmin qalıqları müxtəlif yerlərdən qazıb-çıxarıblar?! Deməli, eyni zamanda belə bir nəticə də hasil etmək olar ki, ermənilər haraları qazmalı olduqlarını kifayət qədər yaxşı bilirmişlər!!! Beləliklə, erməni tərəfi başqa yerlərdəki basdırılma halları ilə bağlı məlumatlıdır!

Təbii ki, suallar çoxdur, hətta daha çoxdur və mövzu da məhz bu kontekstdə inkişaf etdirilir:

- Beynəlxalq aləmin sözügedən prosesə maksimum diqqət göstərməsi vacibdir!

- Azərbaycan Prezidenti İlham Əliyev artıq öz qətiyyətli sözünü deyib və addımını atıb. Misal üçün, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleləri ilə bağlı humanitar əməkdaşlığın vacibliyini vurğulayıb. Və əbəs deyil ki, artıq bununla bağlı həm Moskva, həm Paris, həm də Vaşinqton danışmağa başlayıb.

- Sonuncusu və ən əsası: Azərbaycan yeni təsiretmə mexanizmini tətbiq etməyə başladıb və Ermənistan heç bir halda bu məsələdən yaxasını kənara çəkə bilməyəcək, boyun qaçırmağa macal tapmayacaq. Bu macalı isə Bakı İrəvana əsla, qətiyyən verməz!

**Rövşən RƏSULOV**



### YAP Mərkəzi Aparatında partiyanın Təftiş Komissiyasının üzvü Aydın Hüseynovun 60 illik yubileyi münasibətilə görüş keçirilib

Fevralın 10-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynovun 60 illik yubileyi münasibətilə görüş keçirilib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Bildirilib ki, Aydın Hüseynov uzun müddət YAP Siyasi Şurasının üzvü, Qaradağ rayon təşkilatının sədri və İcra Katibliyinin Təşkilatlarla iş şöbəsinin müdiri kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Hazırda isə Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü və millət vəkili olaraq ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır.



"Sizin Azərbaycan Respublikası Milli Məclisinin V və VI çağırış deputatı kimi fəaliyyətiniz də təqdirəlayiqdir. Milli Məclisin üzvü kimi qanun yaradıcılığı və hüquqi dövlət quruculuğu prosesində, hüquqi bazanın formalaşdırılmasında, qanunvericiliyin təkmilləşdirilməsində yaxından iştirak etmisiniz, müxtəlif ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü olaraq Azərbaycan həqiqətlərinin təbliğində fəallıq nümayiş etdirmisiniz",-deyə Tahir Budaqov qeyd edib.

Yubilyarı doğum günü münasibəti ilə təbrik edən YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova da Aydın Hüseynovun ictimai-siyasi proseslərdə fəallıq göstərdiyini qeyd edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən göstərilən diqqətə və ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən Aydın Hüseynov partiyanın VII qurultayında Təftiş Komissiyasına üzv seçilməsini yüksək qiymətləndirərək ona göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə edib, bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini bildirib.

### Əli Əlizadə: "İran şirkətləri də əminəm ki, bu inkişafa öz töhvəsini verəcək"

"Azərbaycan Prezidentinin sərəncamları ilə işğaldan azad olunmuş ərazilərdə Şərqi Zəngəzur iqtisadi rayonu, Qarabağ iqtisadi rayonu, Araz Vadisi İqtisadi Zonası kimi bölgələr yaradılıb və İran şirkətləri də həmin ərazilərdə sərmayə yatırmağa, bərpa və quruculuq işlərində iştirak etməyə dəvət olunublar". SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycanın İran İslam Respublikasındakı səfiri Əli Əlizadə İranın "İRİB" xəbər agentliyinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi regionda yeni reallıqlar yaratmaqla yanaşı İranla əlaqələrdə də əlavə yeni imkanlar açıb: "İşğaldan azad edilmiş ərazilərdə "ağıllı" kəndlər, şəhərlər tikilir, "yaşıl enerji" zonaları yaradılır və yaxın zamanlarda məcburi köçkün və qaçqınlarımızın həmin ərazilərə qayıtması üzərində işlər qəbul olunmuş proqram əsasında gedir. Azərbaycanın İranla sərhəd ərazilərinin 132 km hissəsi də erməni işğalından azad edilib və artıq İranla olan sərhədlərimiz tam olaraq Azərbaycanın nəzarətindədir. Azərbaycan Prezidenti Azərbaycan-İran sərhəddini dostluq sərhəddi adlandırıb".

Səfir bildirib ki, Prezidentin sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə sahibkarlara və özəl şirkətlərə gömrük və vergi güzəştlərinin, sosial sığorta, kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) və digər güzəştlərin tətbiqi təlimatları verilib: "Orada fəaliyyət göstərən şirkətlərlə dövlət?özəl sektor tərəfdaşlığının yaradılması və tam dövlət dəstəyinin verilməsi aidiyyəti qurumlara tapşırılıb. İcra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və regionun iqtisadi inkişafında mühüm rol oynayacaqdır. İran şirkətləri də əminəm ki, bu inkişafa öz töhvəsini verəcək".

# "Şuşa ili" ölkəmiz üçün yeni və möhtəşəm uğurlar vəd edir

Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi. Dövlət başçısı xalqa müraciətində bildirdi ki: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm". Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu. Prezidentin 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin Şuşa İli elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir.

## SON BİR İLDƏ GÖRÜLƏN İŞLƏR

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Son 1 ildə görülən işlər bir daha göstərir ki, Şuşa Qarabağın incisi kimi dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməkdədir. Çünki ....

## QAYIDIŞ ŞUŞADAN - ƏN YÜKSƏKLİKDƏN BAŞLAMALIDIR

Sözsüz ki, Qayıdış Şuşadan-ən yüksəklikdən başlamalıdır, çünki hazır olan, vacib, əsas olan Şuşadır! Elə buna görə də Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilməkdədir. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".

Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2021-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlara Qalib Liderinin Qələbə yürüşü hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb...

Mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, diplomatik siyasəti və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandar! Qarabağ cənnət məkanıdır və 2022-ci ilin "Şuşa İli" elan edilməsi, onun Azərbaycan xalqının tarixi şəhəri olmasını dünyaya sübut edəcək.

## "ŞUŞA İLİ" BAŞLADI

Hər il olduğu kimi, yenicə başladığımız 2022-ci ilimiz də ilk gündən uğurlu oldu. Ali Baş Komandanımız, Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili "Şuşa İli" elan etdi. 5 yanvar 2022-ci ildə isə Prezidentin 2022-ci ilin "Şuşa İli" elan olunması haqqında Sərəncamı ilə bu qərar hüquqi qüvvəyə mindi. Bu qərar dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qəlbini fərəh, böyük qürur və iftixar hissi ilə doldurdu.

Qeyd edək ki, Prezident İlham Əliyev 7 may 2021-ci il tarixli sərəncamı ilə zəngin və şanlı tarixi keçmişə malik Şuşa şəhəri mədəniyyət paytaxtı elan edildi. Bunun ardınca, 2022-ci ilin "Şuşa İli" elan edilməsi həm tarixi, həm də mədəni baxımdan mühüm əhəmiyyət kəsb edən qədim şəhərimizə verilən ən böyük dəyərin göstəricisidir. Şuşanın 270 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək. 44 günlük Vətən müharibəsindən sonra, postmüharibə ili olan 2021-ci ilin ardınca 2022-ci ilin "Şuşa ili" elan edilməsi Prezident İlham Əliyevin bir daha müdrikliyinin nəticəsi olmaqla Azərbaycanın inkişafında yeni bir səhifə olacaq. İl təkcə Azərbaycanın dilbər guşələrindən biri olan Şuşanın adı ilə bağlı deyil, bu işğaldan azad edilən torpaqların bərpası deməkdir. Bu il artıq ilk məcburi köçkün ailələri öz dədə-baba torpaqlarına qayıdacaqlar. Ağdam və Cəbrayıla yanaşı digər rayon mərkəzlərinin də yeni planla əsası qoyulacaq. Kommunikasiyaların bərpası davam etdiriləcək. Bir çox kəndlərimizin, şəhərlərimizin əsası qoyulacaq və il ərzində onların artıq məskunlaşdırılması baş verəcək. Şuşanın isə sözün əsl mənasında mədəniyyət paytaxtı kimi formalaşmasına dövlət böyük diqqət ayıracaq. Çünki Şuşa bizim kimliyimizdir, Şuşa bizim adımızdır və Şuşada beynəlxalq tədbirlərin, ilk növbədə mədəniyyət tədbirlərinin keçirilməsi geniş vüsət alacaq. Füzuli Beynəlxalq Aeroportunun işə salınması işğaldan azad olunan və bərpa edilən ərazilərlə yanaşı, Şuşa şəhərinin də turist marşrutlarına əlavə edilməsinə şərait yaradacaq. Həmçinin, bu il Şuşanın əsasının qoyulmasının 270 illik yubileyi tamam olur. Bunun özü Qarabağa, Şuşaya Azərbaycan xalqının bağlılığının növbəti bir göstəricisidir.

## "ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ, ÜMUMİYYƏTLƏ, AZƏRBAYCAN YOXDUR"

İllər öncə Ulu Öndər Heydər Əliyev Qarabağın tacı olan Şuşa şəhərinin hər bir azərbaycanlı üçün dəyərini qiymətləndirərkən demişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". Bu, Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun böyük ifadəsi idi. 28 illik həsrətdən sonra Şuşa azadlığına qovuşanda isə Xilaskar İlham Əliyev Şuşanı belə dəyərləndirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Prezident İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında şəhərin bərpası istiqamətində görülən işlərdən danışarkən bildirib: "Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq".

Dövlətimizin başçısı sözünə davam edərək deyib: "Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür".

Prezident qeyd edib ki, Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. "Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı", - deyə Prezident İlham Əliyev əlavə edib.

Bəli, bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli. Bugünkü Şuşanın yenidən qurulması isə İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Odur ki, yenicə qədəm qoyduğumuz 2022-ci ilin "Şuşa İli" elan edilməsi xalqımız üçün çox əlamətdar hadisə olmaqla, həm də ölkəmizin uğurları daha da artacaq, xalqımızın inkişaf və intibahı sürətlənəcək. Bütövlükdə, qalib və qüdrətli Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru əmin addımlarla bundan sonra da irəliləyəcək, ölkəmiz üçün siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə, eləcə də diplomatiya müstəvisində mühüm - yeni və daha möhtəşəm uğurlara imza atacaq.

Bütövlükdə, qalib və qüdrətli Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni hədəflərə doğru əmin addımlarla irəliləyir. "Şuşa ili" isə ölkəmiz üçün siyasi, iqtisadi, ictimai və mədəni sahələrdə, eləcə də diplomatiya müstəvisində mühüm - yeni və daha möhtəşəm uğurlar vəd edir.

**RƏFİQƏ KAMALQIZI**



# İnkişaf bəşəriyyətin hərtərəfli faciəsidir

**İnsan-təbiət münasibəti qədim zamanlardan bəri davam edən bir əlaqədir. İnsanlar təbiətlə harmoniya şəklində yaşayır. Demək olar ki, keçmiş dövrdə bəşəriyyət təbiətdən uzaqlaşmamış, əksinə onunla inteqrasiya yolu seçmişdir. Yəni, insanlar daim təbiətlə iç-içə olub. Əsrlər boyu davam edən bu insan-təbiət münasibəti XVI-XVII əsrin sonlarında dəyişməyə başladı.Təbiətlə bu qədər bağlı yaşadığımız üçün insanlar ekoloji maarifləndirmə ilə bağlı yetərincə məlumata malik olmalıdırlar. İnsanlar təbiətdən uzaqlaşmadan, iqtisadiyyata yönəlmiş həyat konstruksiyasından, sosial özəlləşdirmədən ayrılmadan həyat şəraitini təmin edir.**

Lakin sənaye və əhalinin sıxlığının təbiətə mənfi təsirləri və zərərləri olur. Müəyyən edilib ki, mahiyyət etibarı ilə humanist dəyərlər arxa plana keçib. Yəni, insana daim iqtisadi və siyasi amil kimi yanaşılır. Lakin insan da həyat sürdükcə təbiəti ekoloji zərbələrdən qorumalıdır. İnsan təbiətin bir parçasıdır, insan təbiətin rəqibi deyil. Ekoloji zərbə ilk növbədə ətraf mühitin



məhv edilməsinin (ekoloji vandalizm desək, daha doğru olar) artmasına və təbii ehtiyatların istismarına yönəlib. Bu problemin əsasında həyat və varlığın qorunub saxlanılmaması və məhv edilməsi dayanır. Bu gün fərdin və bəşəriyyətin varlığı təhlükə altındadır. Eroziya və meşə yanğınları bu gün ən faciəli aydınlığı ilə hamının gözü qarşısındadır.

## İnkişaf bəşəriyyətin hərtərəfli faciəsidir

Ətraf mühit insanları da özündə cəmləşdirən bir sistemdir. İnsanın təbiətə müdaxiləsi təbiətdən öz ehtiyaclarına uyğun istifadə etməklə bərabər, tarix boyu müxtəlif yollarla olmuşdur. Sənaye İnqilabından sonra əhalinin sürətlə artması və inkişaf edən texnologiya insanların təbiətə daha çox müdaxilə etməsinə səbəb oldu. Təbii mühit insanların şüursuz istifadəsi nəticəsində pisləşdi. Xüsusilə həyatımızın bütün sahələrində yanacaqlardan istifadənin artması havanın, suyun və torpağın çirklənməsinə səbəb olur. İnsan qida ehtiyaclarını ödəmək, yeni yaşayış məntəqələri açmaq və ya sənaye müəssisələri yaratmaq üçün meşələri məhv edir. Bu insan müdaxilələri ekosistemdəki tarazlığı qoruyan bəzi heyvan və bitki növlərini məhv səbəbdir. Bu gün nəsli kəsilmək təhlükəsi ilə üzləşən bəzi növlər var. Timsahın dərisinə, kərgədanların buynuzlarına görə ovlandığı, yaşayış yeri getdikcə daralan Benqal pələngini misal göstərmək olar.

Keçən əsrə nəzər saldıqda ətraf mühitin çirklənməsinin yaranmasında ən böyük amil insanların daha yaxşı şəraitdə yaşamaq ambissiyasıdır. Hava, suda və tor-



paqda meydana gələn bu çirklənmə bütün canlılara, xüsusən də insanlara mənfi təsir göstərir.

**Mövzu ilə əlaqədar "Ekoloq-Jurnalistlər" İB sədri Cəmşid Quliyev SİA-ya fikirlərini bölüşüb.**

Cəmşid Quliyev bildirib ki, insanların ekologiyaya ögey münasibətinin ilk səbəbi təbii ki, onların məlumatsızlığı və ekoloji savadsızlığıdır: "İnsanlar kifayət qədər təbliğatın olmamasına görə və ekologiyaya diqqətsiz yanaşmalarına görə ətraf mühitə ziyan vururlar. İnsanların diqqətinə çatdırmaq lazımdır ki, onların etinatsız münasibətinin fəlakətli nəticəsi ola bilər. İnsanlar ye-



tərincə bilgiləndirilsə belə bu onların qayğısının artmasına səbəb olmur. İnsanlar meşədə, çimərlikdə və s yerdə istirahət edərkən ətraf mühiti çirkləndirir. Bu mövzuya insanlar bir az eqoist yanaşır. Ekologiyanın yaxşılaşdırılması cəmiyyətin bütün fərdlərinin borcudur. Meşələr dünyanın ağciyəridir. Yəni yer kürəsinin oksigenin əsas hissəsini məşələr təmin edir. Meşələrin qırılması ilə oksigen yetərsizliyi olacaq. Bu isə yalnız tənəffüs çətinləşdirir, həm də yağıntıların azalmasına səbəb olur".

Təbiət unikal kimyəvi, fiziki və bioloji xüsusiyyətlərə malikdir. Müxtəlif bərk və maye tullantıların və ağır metalların torpağa və suya atılması nəticəsində yaranan kimyəvi çirklənmə sənaye sahələrində kifayət qədər çoxdur. Havanın, suyun və torpağın fiziki xüsusiyyətlərinin nəzərəçarpacaq dərəcədə pisləşib. Sənayeləşmə ilə birlikdə qalıq yanacaqların, xüsusilə kömür və neftin istehlakının artması havanın çirklənməsinə səbəb olur. Zavodların bacalarından, istilik elektrik stansiyalarından, evlərdən çıxan zəhərli qazlar bu çirklənmənin əsas səbəbidir. Hava ilə qarışan bu zəhərli qazlar turşu yağışına səbəb olur. Bundan əlavə, irimiqyaslı meşə yanğınları nəticəsində yaranan qazlar da havanı çirkləndirir. Belə hadisələrin baş verməsi atmosferdə karbon qazının miqdarını artırır. Karbon qazının sürətinin artması istixana effektinə səbəb olur ki, bu da dünyanın istiləşməsinə, buzlaqların əriməsinə və iqlimin dəyişməsinə səbəb olur. Günəş enerjisinin təsiri ilə yer üzündəki sular dövr içərisindədir. Su canlılar tərəfindən istifadə edildikdən sonra yenidən bu dövrəyə qoşulur. Bu dövrədə tullantılar suya qarışır. Tullantılar suyun fiziki, kimyəvi və bioloji xüsusiyyətlərini dəyişdirərək onun çirklənməsinə səbəb olur. Yaşayış və sənaye obyektlərinin çirklənmiş suları, kənd təsərrüfatı sahələrində istifadə olunan kimyəvi gübrələr yeraltı və yerüstü suları çirkləndirən əsas səbəblərdir.

İnsanlar sağlam həyat sürmək üçün sağlam qidalara ehtiyac duyurlar. Hava, su və torpağın çirklənməsi də qidaların çirklənməsinə səbəb olur. Qidamızı əldə etdiyimiz bitki və heyvanlar insan sağlamlığını təhdid edə biləcək bu çirklənmiş təbii mühitlərdə yaşamağa davam edirlər.

Dünyadakı ekoloji problemləri həll etmək üçün ilk növbədə həssas olmalıyıq. Həssaslıq təlim vasitəsilə əldə edilə bilər. Bu gün bəzi problemlərə rast gəlinməsi keçmişdə insanların kifayət qədər həssas davranmaması ilə bağlıdır. Ona görə də yeraltı və yerüstü sərvətlərimizdən şüurlu şəkildə istifadə etməliyik. Beləliklə, bu qaynaqlardan daha uzun müddət faydalana bilərik.

**Mövzu ilə əlaqədar SİA-ya ekoloq, Dayanıqlı Azərbaycan Naminə Milli Alyansın rəhbəri, BMT-nin İnkişaf proqramı və Gənclər və İdman Nazirliyi birgə layihəsi çərçivəsində DİM 15 "Torpaq üzərində həyat" üz-**



**rə gənc səfir Gülsarə Qasımova fikirlərini bildirib:** "İnsanların ekologiyaya ögey münasibət bəsləməsinin ən başlıca səbəbi maarifləmə problemi dayanır. İnsanlar ekoloji problemlərə laqeyd yanaşırlar. Çünki onlar bilmirlər ki, bu problem gələcəkdə nə kimi fəsadlara yol aça bilər. bu isə ilk öncə araşdırmanın və maariflənmə in azlığından irəli gəlir. Onlar bu fəsadların nə kimi böyük zərbələr vurduğunu başa düşsələr, artıq təbiəti qorumağın fərqinə vara bilərlər. Son dövrlərdə Azərbaycanda quraqlıq müşahidə olunur, bu isə qidaların bahalaşmasına səbəb olur. bu zərbələri ancaq insanlar özlərinə gələndə fərqinə varırlar".

***Qönçə Quliyeva***

ARAŞDIRMA

## Yunanıstanın nüfuzlu xəbər portalı Naxçıvan barədə yazdı

Yunanıstanın "E-Thessalia" xəbər portalı Naxçıvan barədə geniş məqalə yayıb. "Naxçıvan: qürurlu Azərbaycan diyarı, qədim sivilizasiyaların unikal məkanı" sərlövhəli məqalədə bildirilir ki, fevralın 9-da Azərbaycanın Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümü qeyd edilib. Oxuculara bölgənin muxtar statusunun Moskva (16 mart 1921) və Qars (13 oktyabr 1921) müqavilələri ilə müəyyən edilməsi haqqında ətraflı məlumat verilib, həmin müqavilələrin Naxçıvanın Azərbaycanın tərkibində qalmasını təmin etdiyi vurğulanıb.

Məqalədə qeyd olunub ki, ötən il həm də Qars müqaviləsinin 100 illiyi qeyd edilib. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov fevralın 8-də "Qars müqaviləsinin 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb.

Müəllif diqqətə çatdırıb ki, Qars müqaviləsi çox mürəkkəb siyasi şəraitdə bölgənin erməni təcavüzündən qorunmasında, ona muxtariyyət statusunun verilməsində də mühüm rol oynayıb. Belə ki, ermənilər Azərbaycanın əsas hissəsi ilə heç bir torpaq əlaqəsi olmayan Naxçıvana qarşı daim torpaq iddiaları irəli sürüblər və bu iddialardan heç vaxt əl çəkməyiblər. Vaxtilə qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycanın əsas hissəsindən ayrı salınıb. Bu, məqsədli şəkildə edilib və ermənilərin torpaq iddialarına dəstək xarakteri daşıyıb.




Məqalədə Azərbaycanın müstəqilliyinə gedən yolun 1990-cı illərin əvvəllərində Naxçıvandan başlandığı vurğulanıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası o ağır günlərdə təhlükələrdən xilas edilməsinə görə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə borcludur. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasında Heydər Əliyev Ali Məclisin Sədri vəzifəsini öz üzərinə götürüb. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın milli dövlət rəmzləri ilk dəfə Naxçıvanda qəbul edilib, muxtar respublikanın adından "sovet sosialisti" sözləri çıxarılıb, ali sovetin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul edilib, SSRİ-nin davam etdirilməsi üçün referendumdan imtina edilib. Azərbaycan hələ SSRİ-nin tərkibində olarkən, sovet qoşunları bölgədən çıxarılıb, sərhəd məntəqələrində Azərbaycanın üçrəngli bayrağı qaldırılıb.

Bildirilib ki, ötən illər ərzində Naxçıvan mürəkkəb və çətin inkişaf yolu keçib. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Naxçıvanı Azərbaycanın digər rayonları ilə birləşdirən dəmir yolu və avtomobil yolu bağlanıb, təcrid olunmuş Naxçıvan blokada şəraitində yaşamağa məcbur edilib. Uzun illərdir ki, blokada vəziyyətində qalan Naxçıvanda böyük zəhmət hesabına inkişaf təmin edilib. Bu gün Naxçıvan Muxtar Respublikası iqtisadi cəhətdən Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevrilib. Son illər Naxçıvanın sosial-iqtisadi inkişafı, əhalisinin rifah halının gündən-günə yüksəldilməsi istiqamətində çox mühüm addımlar atılıb.

Qeyd olunub ki, yazılı mənbələr və ərazidə aşkar edilmiş arxeoloji materiallar bir daha təsdiq edir ki, bəşər sivilizasiyasının beşiklərindən biri, Şərqin məşhur ticarət, incəsənət, elm və mədəniyyət mərkəzi olan Naxçıvan qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik milli irsə malikdir. Məşhur Gəmiqaya və ərazidəki digər abidələr Naxçıvanın yaşının 5 min ilə yaxın olduğunu bir daha sübut edir. Naxçıvanın adı tarixdə dəfələrlə dəyişdirilib. Bu adlardan bəziləri bunlardır: Nəkşi-cahan, Nuh çıxan və s. "Naxçıvan" sözü ilkin mənbələrdə Naksuana, Naxç, Naxçuan kimi qeyd olunub. Naxçıvanın adı ilə bağlı müxtəlif tədqiqatçılar tərəfindən bu qədər fikir irəli sürülməsinə baxmayaraq, ərazinin adı Nuh peyğəmbər və Dünya tufanı əfsanəsi ilə six bağlıdır. Naxçıvan şəhərində Nuh peyğəmbərin məzarı da mövcuddur və hazırda orada yenidənqurma işləri aparılır.

Məqalənin sonunda vurğulanıb ki, bu qədim Azərbaycan diyarı hazırda yeni inkişaf mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən sonra regionda kommunikasiya dəhlizlərinin və nəqliyyat marşrutlarının açılması Naxçıvanın strateji əhəmiyyətini daha da artıracaq. Azərbaycanın qərb rayonlarını Naxçıvan ilə birləşdirəcək Zəngəzur dəhlizinin fəaliyyətə başlaması regionda təkcə iqtisadi deyil, həm də müsbət siyasi proseslərə təkan vermək potensialına malikdir. Avrasiyanın ümumi nəqliyyat əlaqələrində müsbət yeniliklər baş verəcək, Zəngəzur dəhlizi Cənubi Qafqazdan keçən həm Şimal-Cənub, həm də Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin bir hissəsi olacaq. Bu, Naxçıvanın daha da sürətli inkişafına və çiçəklənməsinə töhfə verəcək. Məqalə ilə bu linkdən tanış olmaq mümkündür:

https://e-thessalia.gr/nachtsivan-mia-perifani-gi-toy-azermpaitzan-monadikos-proorismos-archaion-politismon/

# Övladlarımızda təhsilə olan istəksizliyin SƏBƏBLƏRİ NƏLƏRDİR

**İstedad sonradan qazanılmır, insanın özü ilə doğulur. Elə uşaqlar olur ki, zamanında bu istedadı inkişaf etdirə bilmir, istedad onun daxilində, ürəyinin bir küncündə dəfn olunur. O bilir ki, içində doğulan, lakin ayaq tutub yerimək səadətini yaşamayan bir aləm yatır. Əlbəttə, bu, insana hər zaman ağrı verir.**



Bəzi hallarda valideynlərin, müəllimlərin onlara qayğı göstərməməsi səbəbindən istedad cilalanıb üzə çıxa bilmir. Bəs burada təhsilin rolu necədir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:

**Şəhər sakini Rüstəm Cəfərov:** ”İnsanlar arasında elmə maraq qətiyyən yoxdur. Xüsusilə, dəqiq elmlərə, fizika, kimya, riyaziyyata və s. həvəs azalıb. Hər şeyin əsasını iqtisadiyyat təşkil edir ki, burada başlıca səbəb müəllimlərin, təhsil ocaqlarındakı kadrların maaşlarının az olması ilə əlaqədardır. Çünki maaş az olduqda, istər-istəməz həmin müəllimin o işə həvəsi azalır və onunla birlikdə potensialı da azalır”.



**Şəhər sakini Bikəxanım Qasımova:** ”Burada başlıca səbəb uşaqların özündə olan istəksizlikdir. Çünki onların maraq dairəsində bu dəqiqə telefon, sosial şəbəkələrdir. Belə olduğu halda biz valideynlər də düşünürük ki, onların gələcəyi görəsən necə olacaq? Bizi ən çox narahat edən məsələlərdən biri də budur. Bu barədə maarifləndirici işlər görülməlidir, kitablara, dərsliklərə, elmə maraq oyadılmalıdır ki, ən azından övladlarımız bir az da olsa, həvəsli olsunlar”.



**Şəhər sakini Nizami Aslanov:** ”Düşünürəm ki, burada əsas faktor, bizim övladlarımıza, balalarımıza təhsili aşılayan müəllimlərimizin maddi vəziyyətinin yaxşılaşdırılmasıdır. Çünki elə dövlətlər var ki, orada müəllimlərin, pedaqoji heyyətin maaşları bizim ölkəyə nisbətən çox yüksək səviyyədədir. Düzdür ki, dövlətimizin elmə, təhsilə ayırdığı diqqət danılmazdır. Lakin burada əksik olan xüsusları da vurğulamalıyıq. Burada dövlətdən əlavə ailənin də rolu böyükdür. Uşaqlara yanaşmaq, onların gündəlik qayğılarını dinləmək, onlara psixoloji yardım göstərmək, valideynlərin öhdəsində olmalıdır. Körpələrlə danışmağı onların dərdinə qulaq asmağı və hətta öz problemlərini də onlarla bölüşməyi öyrənməlidirlər”.





**Şəhər sakini İlahə Məmmədova:** ”Məncə, təhsil sistemində yeni və gənc kadrlar olsa uşağın həm dərsə, həm də məktəbə marağı olar. Həmin məktəbə gələndə üzülərək yox məhz can ataraq gələ bilər. Bəzi yaşlı kadrlar uşaqlarla davranış tərzini bilmirlər. Çünki onlarda hövsələ olmur ki, uşaqla yola gedə bilsinlər. Bu səbəbdən də uşaqlarda təhsilə həvəs azalır”.

**Şəhər sakini Kamil Məmmədov:** ”Əminəm ki, dövlətimiz bu barədə mümkün variantlardan istifadə edir və təhsilə diqqət ayırır. Təhsil ocaqları həm təhsilin yüksək səviyyədə keçməsinə, həm də şagirdlərin, kollektivin sağlamlığının, səhhətinin gözlənilməsi istiqamətində müvafiq fəaliyyətləri həyata keçirir. Biz belə addımları bəyənirik və tərəfdarıyıq”.





**Şəhər sakini Əyyub Kərimov:** ”Düşünürəm ki, birinci növbədə təhsilimizi daha müasir səviyyəyə qaldırmaq üçün bir nömrəli məsələ onun maddi texniki bazasının yüksəldilməsidir. İkinci və ən mühüm məsələ isə dərs deyən müəllimlərin əmək haqlarının yüksəldilməsidir. Çünki yaxşı əməkhaqqı olmasa insan enerjisini, gücünü ona görə sərf edir ki, yaxşı yaşayış tərzi olsun. Üstəlik hesab edirəm ki, bizim təhsilimizdə ən mühüm problemlərdən biri də ondan ibarətdir ki, hamıya ümumi, stabil dərs keçilir və ixtisası olmayan şagirdlər də məcburdurlar ki, həmin dərsləri oxusunlar. Burada da problemlər yaranır ki, şagird öz fənni, ixtisası üzrə ixtisaslaşa bilmir və buna görə də təhsilə maraq azalır”.

**Şəhər sakini Nuriyə Namazova:** ”Mənim fikrimcə, burada təhsil ocaqlarında olan texniki bazaların səviyyəsi olduqca aşağıdır. Məktəblərdə dərs zamanı laboratoriyalardan istifadə edilmir və həmin şagird dərsdə tam olaraq nədən söhbət getdiyini qavramır. Digər ölkələrə baxdıqda görürük ki, şagirdlərə dərs zamanı kimya fənnindən reaksiyalar əyani olaraq göstərilir və şagird maddəni görür və tanıyır. Lakin bizdə bu, çox da görülmür. Düşünürəm ki, belə məsələlərə diqqət göstərilsə, təhsil səviyyəmiz daha yaxşı olar”.

*Rüqəyyə Orucova*

# Mövlud Çavuşoğlu: “Bir millət, iki dövlət!” anlayışı ilə Azərbaycanla bir-birimizi qorumağa davam edəcəyik

**Mərhum Heydər Əliyevin dediyi kimi ”Bir millət, iki dövlətik!”. Dilimiz, dinimiz, taleyimiz birdir. Bir millətik. Bir millət kimi, lazım olduqda bir dövlət kimi necə davranmaq lazım olduğunu yaxşı bilirik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin ”TRT Haber” telekanalında canlı yayımda çıxış edən xarici işlər naziri Mövlud Çavuşoğlu ifadə edib.**

Tanınmış aparıcı Ahmet Görməzin Şuşa Bəyannaməsindən sonra iki qardaş ölkə münasibətlərinin dinamikasına aid sualını cavablandıran nazir Mövlud Çavuşoğlu Qarabağ Zəfərinin ”Bir millət, iki dövlət!” anlayışı və duyğusu əsasında, qətiyyətli qərarlar nəticəsində qazanıldığını diqqətə çatdıraraq deyib: ”Qarabağ Zəfərindən sonra Şuşa Bəyannaməsi əsasında əlaqələrimiz yeni bir formaya gəlib. Biz müttəfiqik! Bu Bəyannamə çərçivəsində atılacaq addımlar məlumdur və bu istiqamətdə də çalışırıq”.

Azərbaycan və Türkiyənin ”Bir millət, iki dövlət!” anlayışı ilə bir-birini bundan sonra da qoruyacaqlarını diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dostluq və qardaşlıq münasibətini xatırladaraq vurğulayıb ki, Azərbaycan tərəfi beynəlxalq platformalar da daxil olmaqla bütün məkanlarda səmimi istəklə hər zaman Türkiyənin yanında olub.

Ermənistan ilə Türkiyə arasında normallaşma prosesində Azərbaycanın hər hansı bir narahatçılığı yoxdur. Tam əksinə,




Azərbaycan bu prosesi dəstəkləyir. Sözügedən prosesdə Azərbaycan ilə məsləhətləşmə aparmadan addım atılmadığını diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan bizim Ermənistanla birbaşa təmasda olmağımızı istəyir. Azərbaycanın Qarabağ Zəfəri ilə Cənubi Qafqazda işğal problem həllini tapdı. Artıq sülh və əməkdaşlığın təmin edilməsi lazımdır.

Ermənistan daxil olmaqla bütün tərəflər üçün Qarabağ Zəfərindən dərs almağın vacib olduğunu ifadə edən nazir Mövlud Çavuşoğlu məlumat verib ki, Paşinyanın seçkiləri qazanandan sonra ünvanladığı mesajlara Türkiyə Prezidenti də cavab verib. Türkiyə və Ermənistanın xüsusi nümayəndələri fevralın 24-də Vyanada görüşəcəklər. Nazir əlavə edib ki, Azərbaycan da Ermənistanla davamlı sülh istəyir.

# Media Qanunu:
# yeni çağırışlara yeni cavab

***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Media haqqında" Azərbaycan Respublikası Qanununun təsdiq olunması mediada və cəmiyyətdə müzakirələrə yol açıb. Biz də bununla bağlı fikirlərimizi bildirməyə çalışacağıq.***

Dövrün tələbləri ilə media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" yeni qanunun qəbul edilməsinə həqiqətən böyük ehtiyac var idi. 1999-cu ildə qəbul olunmuş və indiyədək qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi dəfələrlə dəyişdirilmişdi, buna baxmayaraq müasir çağırışlarla uzlaşmırdı.

Həyatın hər sahəsindəki vəziyyəti müvafiq qanun tənzimləyir. Bu, bütün ölkələrdə belədir. Azərbaycanda da çoxsaylı müxtəlif qanunlar qəbul olunub və dövrün tələblərinə uyğun olaraq mütamadi olaraq təkmilləşdirilir. Media sahəsi də istisna ola bilməzdi. Bütün dünyada məsuliyyətli media yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Azərbaycanın yeni "Media haqqında" Qanunu da ekspertlər tərəfindən məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi qanun layihəsi kimi xarakterizə olunur. "Media haqqında" qanunun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ açacağı şübhə doğurmur.

Yeni qanun media subyektlərinin dəqiq təsnifatını verir və eyni zamanda jurnalistin sosial portretini müəyyənləşdirən vasitə kimi çıxış edir. Qanun həm də dövlət-media münasibətlərində əsas elemetlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə xidmət edəcək.

Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsini təmin edəcəkdir.

Qanunun əsas müddəalarına baxdıqda aydın olur ki, bu məhz medianın inkişafı, onun müasir tələblərə uyğunlaşması, jurnalistlərin iş və əmək hüquqlarının təsbit olunması, həmçinin cəmiyyətdə medianın rolunun artırılmasına xidmət edir. Əsas müddəaların nələrdən ibarət olduğuna baxaq.

1. Media Reyestri nə deməkdir və nəyi özündə ehtiva edir?

Nəzərdə tutulan məsələlərdən biri əksər inkişaf etmiş ölkələrdə olduğu kimi, bizdə də Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunmasıdır. Bu, könüllülük prinsipi əsasında həyata keçirilsə də, media mühitinin sağlamlaşmasına müsbət təsir göstərəcək. İndi ortalıqda 50 mindən artıq saxta jurnalist vəsiqəsi ilə dolaşan insan var ki, bu da medianı gözdən salmaqla yanaşı, cəmiyyətə də problem yaradır, reketçiliyə, dezinformasiya yayılmasına şərait yaradır. Ona görə də, əsl jurnalistlərin ümumi bir reyestri olması məqsədəuyğun hesab edilir.

Lakin Agentlik tərəfindən verilən jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda təsbit olunan



**Bəhruz Quliyev**
**"Səs" Media Qrupunun rəhbəri**

"jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər. Reyestrin məqsədi media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinə və onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin edilməsidir.

Bir çox ölkələrdə, o cümlədən Türkiyədə bu sistem çoxdan fəaliyyət göstərir həm də effektli şəkildə. Reyestr və vahid vəsiqə əsl jurnalistlərə azad və peşəkar işləmək üçün böyük imkanlar açır, onlara bəzi imtiyazlar verir. Necəmi? Gəlin baxaq.

71.1. Jurnalist vəsiqəsi verilmiş şəxslərin aşağıdakı imtiyazları vardır:

71.1.1. jurnalist fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dövlət və bələdiyyə mülkiyyətində olan muzeylərə, qalereyalara, habelə mədəni-ictimai tədbirlərin həyata keçirildiyi obyektlərə ödənişsiz daxil olmaq;

71.1.2. dövlət orqanları, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları tərəfindən akkreditasiya olunmaq;

71.1.3. əhəmiyyətli tədbirlərə dair kütləvi informasiyanın axtarılması, əldə olunması, ötürülməsi, istehsalı və yayımı məqsədilə həmin tədbirlərin keçirildiyi məkanlara bu Qanunun 72-ci maddəsinə uyğun olaraq akkreditasiya olunduğu halda daxil olmaq;

71.1.4. bu Qanunun 76.1.2-76.1.5-ci maddələrində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan yararlanmaq.

76.1.2-76.1.5-ci maddələrdə isə deyilir;

76.1. Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər:

76.1.1. media subyektlərinə dövlət orqanları tərəfindən rəsmi elan və sosial reklamların sifarişi;

76.1.2. media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı;

76.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təşkil edilən dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlər üzrə layihələrdə iştirakı;

76.1.4. maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

76.1.5. sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

Göründüyü kimi, Media Reyestrinə daxil edilən, vahid jurnalist vəsiqəsi daşıyan şəxs üçün mənfi heç nə yoxdur, əksinə xeyli faydalı məqamlar var.

2. Reyestrə daxil edilməyən jurnalistlər necə olacaq?

Reyestrin olması bir çox sahələrdə nizam və rahatlıq yaradacaq - media subyektlərinin sayının müəyyənləşdirilməsi, onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsi kimi çox sahədə faydalı olacaq.

Jurnalistlərinin məlumat bazasında qeyd olunması onların fəaliyyətinin daha səmərəli təşkilini və hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır.

Lakin Media Reyestrinə daxil edilməyən jurnalistlərin də fəaliyyətinə heç bir manea nəzərdə tutulmur. Vahid jurnalist vəsiqəsi olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda təsbit olunan "jurnalist anlayışı" xidmət müqaviləsi əsasında işləyən jurnalistləri də əhatə edir. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər.

3. Sosial şəbəkələr və bloggerlərin fəaliyyəti tənzimlənirmi?

Qanun sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləmir. Onlar heç bir vəsiqə almadan, əmək müqaviləsi olmadan, sərbəst şəkildə fəaliyyət göstərəcəklər. Göründüyü kimi, bəzi qeyri-obyektiv şəxslərin iddalarına baxmayaraq, yeni qanun heç də söz və mətbuat azadlığına mane törətmir, heç kimin sərbəst fəaliyyətinə qadağa qoymur.

Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsini təmin edəcəkdir.

Konkret olaraq müvafiq Qanunun predmeti media subyektləri və jurnalistlərin media sahəsində fəaliyyətləri ilə bağlı münasibətlərdir. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu Qanunun təsir dairəsinə daxil deyil.

4. Televiziya sahəsində tənzimləmə azad şərait yaradır

Son vaxtlar geniş yayılmış və sayı sürətlə artan internet televiziyaların lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Lisenziya almayan internet televiziyalar öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər. Bu konkret o deməkdir ki, istəyən şəxs sərbəst şəkildə internet televiziyası açıb fəaliyyət göstərə biləcək və onun fəaliyyətinə heç bir maneədən söhbət gedə bilməz.

Məlum olduğu kimi, hazırda ölkəmizdə onlarla internet televiziyası fəaliyyət göstərir və bu say sürətlə artır. Hətta fərdi bir şəxs də özünə internet televiziyası açıb sərbəst şəkildə informasiya yaya bilir. Onların fəaliyyətinə heç bir manea yoxdur.

5. Mediada müəlliflik hüquqlarının qorunması necə tənzimlənəcək?

Yenin qanunla media subyektlərinin istehsal etdikləri məhsullar üzərindəki müəlliflik hüquqlarının qorunması təmin ediləcək, media subyektlərinin bir-birlərindən material "oğurlamaq" vərdişləri aradan qalxacaq, informasiya uğrunda mübarizə və məqalə yaratmaq bacarıqlarının inkişafı sürətlənəcək.

Bununla bağlı Qanunla çox maraqlı və faydalı bənd var. 13-ci maddəyə görə, bir media orqanı başqasının hazırladığı materialı bütövlükdə götürüb yaya və ondan bəhrələnə bilməz. Yalnız üçdə bir hissəsini verə bilər, o da istinad etməklə. Başqasının materialını tam yayımlamaq və dərc etmək yalnız abunəlik və müqavilə əsasında mümkündür.

Maddə 13. İnformasiyadan istifadə edilməsi

13.1. Media subyekti digər media subyektinin informasiyasını və proqramlarını istinad etməklə abunəlik və ya müqavilə əsasında istifadə edə bilər.

13.2. Abunəlik və ya müqavilə olmadıqda media subyekti digər media subyektinin hər bir informasiyasının yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər.

Göründüyü kimi, qanunun əsas prinsiplərindən biri də informasiya istehsalçısı və yayımçılarının müəlliflik hüquqlarının qorunması ilə bağlıdır. Qanun layihəsində mediada dərc olunan, yayımlanan informasiya və ya hər hansı material ilə bağlı konkret və dəqiq tələblərin müəyyən edilməsi jurnalist peşəkarlığının, sosial məsuliyyətinin artmasında mühüm əhəmiyyət kəsb edəcək. Bu, xüsusilə də onlayn media vasitələrinin "copy-paste" prinsipi əsasında çalışmasının qarşısını alacaq və jurnalistlərin məsuliyyətini artıracaq.

Hər hansı bir araşdırma, müsahibə, reportajı əziyyət, vaxt, enerji, vəsait xərcləyib hazırlayan media vasitəsindən hazır materialı götürüb yayıb müəllifdən daha çox bəhrələnmək ədalətli deyil. Qanun bu məsələdə konkret olaraq ədaləti bərqərar edir.

Ümumiyyətlə, bu layihə media fəaliyyətinin yeni trendlərə adekvat şəkildə müasirləşdirilməsi, əqli mülkiyyət və müəllif hüquqlarının qorunması, media və jurnalist adından sui-istifadə hallarının aradan qaldırılması baxımından yeni imkanlar açır.

6. Çap mediası necə fəaliyyət göstərəcək?

Çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Bu da media azadlığının ən bariz nümunəsidir. Çap mediası subyektlərinin fəaliyyətə başlamazdan əvvəl bu barədə məlumat verməsi isə, yeni bir prosedur deyil və artıq bu istiqamətdə çoxillik təcrübə mövcuddur. Sadəcə, hazırda bu məlumatların sistemləşdirilməsi, müvafiq yanaşmanın onlayn media subyektlərinə də tətbiq olunması və sistemləşdirilmiş məlumatlar bazasının Media Reyestri adlandırılması nəzərdə tutulmuşdur.

Hazırda ölkədə 5 mindən artıq media vasitəsi aktiv fəaliyyət göstərir. Bu sahədə elə bir sistemsizlik, qarışıqlıq yaranıb ki, jurnalistlər özləri elə bəzi hallarda ayırd edə bilmirlər ki, hansı media orqanı hansıdır. Bu fonda qəzetlərin mübarizə aparması xeyli çətinləşir. Məhz buna görə, MEDİA çap mediasına yardımlar edir, onların belə ağır rəqabət şəraitində yaşaya bilməsi üçün çalışır.

7. Jurnalistlərin sosial müdafiəsində nələr dəyişəcək?

Media sahəsindəki problemlərdən biri də jurnalistlərin bir çoxunun əmək və sosial hüququnun pozulmasıdır. Belə ki, bir çox jurnalistlər əmək müqaviləsi olmadan işləyir ki, nəticədə onun pensiya kapitalı toplanmır, işçi kimi hüquqlarından istifadə edə bilmir. Qanun bu sahədə vəziyyəti kökündən dəyişəcək.

Media orqanları əməkdaşlarını rəsmi müqavilə əssında işə götürməli olacaqlar və onlara ölkə üzrə müəyyənləşdirilmiş minimum aylıq əməkhaqqından aşağı məbləğdə maaş verə bilməyəcəklər. Həta, Medianın İnkişafı Agentliyindən qrant və yardım almış media orqanlarına agentlik tövsiyyə, daha doğrusu tələb edir ki, əməkdaşlara ölkə üzrə orta aylıq əməkhaqqı məbləğində maaş verilməlidir.

Bundan başqa MEDİA-nın mütamadi olaraq təşkil etdiyi yazı müsabiqələrində əsil peşəkar jurnalistlər yaxşı pul mükafatı qazanırlar ki, bu da onların sosial vəziyyətinin yaxşılaşmasına töhfə verir.

Qanuna görə, jurnalistlər müxtəlif sosial güzəştlərdən, mükafatlardan, imtiyazlardan da istifadə edə biləcək ki, bu da onların daha rahat işləməsi üçün zəmin yaradacaq. Qanunun müvafiq bəndlərinə təkrar baxaq:

76.1.4. maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə;

76.1.5. sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

Yeri gəlmişkən, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən İpoteka haqda Qanuna edilən dəyişikliklə jurnalistlər də güzəştli sosial ipoteka ala biləcək şəxslər siyahısına daxil edildi. Beləliklə, Reyestrə daxil olan və qanunda nəzərdə tutulmuş tələblərə cavab verən jurnalistlər özlərinin ən çətin problemi olan mənzil problemini güzəştli şərtlərlə həll edə biləcəklər. Fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər, eləcə də, gənc ailənin üzvü olmayan ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka krediti ala biləcəklər.

Məsələ təkcə bununla da bitmir. Jurnalistlərin bir çox sosial imtiyazlardan istifadə edə bilməsi də mümkün olacaq. Məsələn ictimai nəqliyyatdan pulsuz istifadə, bir çox obyektlərə pulsuz giriş, normal əməkhaqqı ilə təmin edilmə, iş və əmək hüquqlarının qorunması və s.

Bununla bağlı MEDİA tərəfindən işlər həyata keçirilir. Məsələn, MEDİA-dan qrant və yardımlar alan redaksiyalara əməkdaşlara minimum 600 manat maaş ödənilməsi tələbi qoyulub. Bundan başqa işçilərin rəsmi əmək müqaviləsi ilə çalışması da tələb edilir. Bu tələblər jurnalistlərin iş və əmək hüquqlarını qorumaqla yanaşı, onların ən azı orta əməkhaqqı məbləğində maaş almalarını təmin edir. Jurnalistlərin mənzil-məişət qayğılarının azalması onların işinin keyfiyyətinə müsbət təsir göstərəcək və bu da özünü həm media sahəsində inkişafa, həm də cəmiyyətin maarifləndirilməsi və məlumatlandırılması işində peşəkar yanaşmada aydın büruzə verəcək.

Göründüyü kimi, artıq jurnalistlərin Qanunda nəzərdə tutulan faydalardan bəhrələnmək imkanları artır. Konkret desək, Media haqqında Qanun təkcə bu sahədə texniki tənzimləmələri nəzərə almır, həm də insan faktorundan çıxış edir, bu sahədə işləyənlərin sosial müdafiəsini, sosial hüquqlarını təmin edir.

8. Jurnalistin fəaliyyət azadlığı necə tənzimlənəcək?

Yeni Qanun jurnalistlərin fəaliyyət azadlığına heç bir manea yaratmır, əksinə onların işinin daha da asanlaşdırılmasını təmin edir. Jurnalistin dövlət orqanlarından informasiya əldə etmək hüququ heç bir halda məhdudlaşdırılmır. Əksinə, daha tez cavab verilməsi tələb olunur.

17.3. İnformasiya əldə edilməsi barədə yazılı sorğuya "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Həmin Qanunda göstərilən müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

Bütün bunlar isə öz növbəsində mediamızın inkişafı, peşəkar işləməsi, bu sahədə qayda-qanun yaradılmasını təmin edir. Ümumiyyətlə, son 1 ildə bu sahədə xeyli işlər görülüb. MEDİA-nın yaradılması, onun jurnalistlər üçün peşə təlimləri təşkil etməsi, müxtəlif layihələr, müsabiqələrlə bu sahədə inkişaf meyillərinin yaradılması, tələblərə cavab verən media subyektlərinin qrantlar və yardımlarla dəstəklənməsi, mediada peşə etikasına və qanunlara riayət edilməsi üçün qoyulan tələblər, yeni Media Qanununun qəbul edilməsi və nəhayət Prezident fərmanı ilə jurnalistlərin sosial ipoteka almaq imkanlarının yaradılması - bütün bunlar bu sahədə vəziyyəti kökündən dəyişməyə hesablanmış addımlardır. Hələ proses yeni başlayıb, şübhə yoxdur ki, tezliklə media sahəsində tamamilə yeni vəziyyət yaranacaq.

Bu ildən etibarən Media qanununun tətbiq olunması, bu sahədə islahatların aparılması, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi tezliklə öz müsbət nəticələrini verəcək. Yekun nəticədə Azərbaycan mediasının inkişafının, beynəlxalq satandartlara uyğun peşəkar çalışmasının və bu sahədə qayda qanunun bərqərar olmasının, həmçinin jurnalistlərin iş və əmək hüquqlarının təmin edilməsinin bütün cəmiyyətimiz və dövlətimiz üçün faydalı olacağını görmək çətin deyil.

Göründüyü kimi, bəzi dairələrin ətrafında süni hay-küy qopardığı Media qanununun heç bir mənfi tərəfi yoxdur. Tam əksinə, qanun bu sahədə qayda-qanun yaratmaq, mümkün xaosun və anaxiyanın qarşısını almaq, informasiya məkanının təmizliyinin və jurnalistikanın inkişafının təmin edilməsini şərtləndirəcək.

# "Qarabağda istənilən təxribata qarşı ciddi tədbirlər görülməlidir"

## *Politoloq Anar Əliyevin SİA-ya müsahibəsi*



***- Anar müəllim, sizcə Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsi və sülhün bağlanmasına Ermənistan hazırdırmı?***

- Nikol Paşinyanın Azərbaycanla dəmir yolu və avtomobil yolunun açılmasına Ermənistanın hazır olması bağlı bəyanat səsləndirməsi Ermənistan-Azərbaycan arasında münasibətlərin tənzimlənməsi eləcə də böyük sülhün tezliklə imzalanacağı ilə bağlı tərəflərdə inamı kifayət qədər gücləndirib. Hesab edirəm ki, Fransa prezidenti Emmanuil Makronun və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin, Azərbaycan Prezidenti və Ermənistan Baş naziri arasında keçirilən video formatda görüş zamanı yalnız post münaqişə terminlərindən istifadə olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərinin tənzimlənməsinin müzakirə mövzusu olması, Azərbaycanın Qarabağ bölgəsində separatçı rejimə hər hansı bir statusun verilməsi ilə bağlı məsələlərin gündəmdə olmaması, Ermənistan və Azərbaycan arasında iqtisadi kommunikasiya, nəqliyyat əlaqələrinin qurulması ilə bağlı fikirlərin səslənməsi əldə olmuş kövrək sülhün davamlılığının təmin olunması istiqamətində tərəflərin üzərinə götürdükləri öhdəliklərə sadiqliyin bəyan olunması Ermənistan tərəfində də ən böyük havadarı olan Fransanın belə Azərbaycanın yaratdığı reallıqlarla barışdığını və bu reallıqların irəli sürdüyü şərtləri qəbul etdiyini göstəricisi kimi qiymətləndirildi.

***- Ermənistan sərhədlərin müəyyənləşdirilməsi məsələsində şərt irəli sürüb. Bununla Ermənistan sülh yolunda əngəllər yaratmırkı?***

- Bundan sonra Ermənistan cəmiyyətində və siyasi hakimiyyətində tam bir təəssürat Azərbaycanın irəli sürdüyü şərtləri qəbul etmədən, Azərbaycanla münasibətləri formalaşdırmadan, Cənubi Qafqaz ailəsinin bərabər hüquqlu üzvinə çevrilmək və Cənubi Qafqazda həyata keçirilən layihələrin iştirakçısı olub, bu layihələrdən iqtisadi nəticələr əldə etmək mümkün deyil. Məhz Ermənistan Baş Naziri Nikol Paşinyanın son açıqlamasını bu hədəflə, bu məqsədlə qiymətləndirmək olar. Təbii ki, açıqlamalar Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi istiqamətində Ermənistan tərəfindən də artıq müsbət elementlərin özünü göstərməsi onu deməyə imkan verir ki, Ermənistan və Azərbaycan arasında münasibətləri tənzimləyəcək böyük sülhün imzalanması da tezliklə mümkün olacaqdır. Amma ümumiyyətlə prosedur qaydası olaraq Ermənistan və Azərbaycan arasında sülhün imzalanması üçün bir sıra zəruri addımlar atılmalıdır. Xüsusilə də Azərbaycan və Ermənistan qarşılıqlı şəkildə dövlətlərin ərazi bütövlüyünü tanımalıdır. Bunun üçün sərhədlərin delimitasiya və demarkasiyası prosesi həyata keçirilməlidir. Bu prosesdən öncə isə sərhədlərin delimitasiya və demarkasiyası prosesi ilə məşğul olacaq mütəxəssislərdən ibarət işçi qrupu yaradılmalı və işçi qrup müxtəlif dövrə aid sənədlər, xəritələr əsasında Ermənistanla Azərbaycan arasındakı sərhədlərin delimitasiya və demarkasiya prosesini həyata keçirməlidir. Eyni zamanda Azərbaycan və Ermənistan arasında iqtisadi nəqliyyat kommunikasiya əlaqələrini nəzərdə tutan iqtisadi münasibətlər formalaşmalıdır. Davamlı olaraq Ermənistan və Azərbaycan arasında siyasi və diplomatik münasibətlər qurulmalıdır. Bunun davamı olaraq Azərbaycanın da mühüm şərt kimi irəli sürdüyü Ermənistan və Türkiyə arasında münasibətlərin tənzimlənməsi istiqamətində Ermənistan tərəfindən əməli addımlar atılmalıdır.

***- Ermənistanla Türkiyə arasında münasibətlər qurulmaqdadır. Sizcə bundan sonra Ermənistan Türkiyəyə qarşı ağılsız iddialarından əl çəkəcəkmi?***

- Münasibətlərin yaradılması üçün Ermənistan Türkiyəyə qarşı əsasız iddialarından əl çəkməlidir. Hesab edirəm ki, bu proseslər həyata keçirildikdən sonra yaxın illərdə Ermənistan və Azərbaycan arasında böyük sülhün imzalanması kifayət qədər realdır. Artıq Ermənistan mövcud reallıqları dərk edib bu reallıqlardan kənar Ermənistanın mövcud ola bilməyəcəyini qəbul etməkdədir. Amma unutmaq olmaz ki, qarşımızda iki yüz illik riyakar bir erməni cəmiyyəti və onun terrorçu toplumu dayanır. Ona görə də, onların səsləndirdiyi hər bir bəyanata kifayət qədər ehtiyatlı və istənilən an verdikləri sözdən geri çəkilə bilmə prespektivlərini nəzərə alaraq davranmaq lazımdır. Unutmaq olmaz ki, Ermənistan tərəfinin hər bəyanatından sonra Azərbaycanın Qarabağ bölgəsində erməni separatçı qüvvələri tərəfindən Azərbaycana və ordumuza, mülki vətəndaşlara qarşı təxribatlar törədilir. Ona görə də, Azərbaycan ordusu hər zaman ayıq sayıq, diqqətli olmalıdır. Azərbaycanın Qarabağ bölgəsində istənilən təxribata qarşı ciddi reaksiya və cəza tədbirləri görülməlidir. Qarşı tərəf anlamalıdır ki, Azərbaycana qarşı törədə biləcək istənilən təxribatı Azərbaycan ordusu, dövləti dəfələrlə artıqlaması ilə erməniləri cəzalandırmaqla cavab verəcəkdir. Məhz bu addımların atılması Ermənistanı və erməni cəmiyyətini eyni zamanda, Qarabağdakı separatçı qüvvələri də Azərbaycanın yaratdığı və irəli sürdüyü son reallıqlardan irəli gələn tələbləri qəbul etmək məcburiyyətində qoyacaqdır.

***Gülyana***

# "Hədəflərimiz səhiyyədə insan kapitalının gücləndirilməsidir"

Ölkə vətəndaşlarının sosial müdafiəsi daim nəzarət altındadır. SİA-nın məlumatına görə, bunu səhiyyə naziri Teymur Musayev keçirdiyi brifinqdə deyib. Onun sözlərinə görə, son 2 ildə bütün dünya pandemik dövr yaşayır.



"Pandemiyanın ilk dövrlərindən çox qısa bir müddətdə ən müasir avadanlıqlarla təchiz olunan tibb müəssisələri koronavirus xəstələrinin xidmətinə verilib. Hazırda səhiyyə nazirliyi səhiyyə sektorunda tək fəaliyyət göstərmir, digər qurumlar da mövcuddur. Səhiyyənin keyfiyyətcə yeni müstəviyə qaldırılmasında orta və qısa müddətli addımlar nəzərdə tutulub. Orta müddətli hədəflərimiz səhiyyədə insan kapitalının gücləndirilməsidir"- deyə o əlavə edib

Nazir qeyd edib ki, hər bir səhiyyə sisteminin effektiv fəaliyyəti üçün dərmanlara tətbiq olunan qiymətləndirmə prosesi sağlam formalaşdırılmalı və əlçatan olmalıdır. Onun sözlərinə görə, yaxın zamanlarda yerli dərman vəsitələri ilə bağlı təkliflər təqdim olunacaq.

# Şuşa bəyannaməsi iki ölkənin təhlükəsizliyinə öz töhfəsini verəcək

"Hesab edirəm ki, Azərbaycan-Türkiyə əməkdaşlığı artıq yeni mərhələ qədəm qoyur". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, əvvəlki dövrlərdə iki ölkə arasında bütün sahələr üzrə çox sıx əməkdaşlıq var idi: "Biz növbəti addımlarla əlaqələrimizi daha da gücləndiririk. Artıq qardaş Türkiyə ilə əlaqələrimiz müttəfiqlik müstəvisindədir. Azərbaycan-Türkiyə münasibətləri artıq yeni mərhələyə qədəm qoyur. Hazırda bölgədə baş verən proseslər, hadisələr iki ölkə arasında olan əməkdaşlığın əhəmiyyətli və vacib olduğunu bir daha göstərir. Qarşımızda duran əsas məqsədlərdən biri də Azərbaycan-Türkiyə münasibətlərinin daha da gücləndirilməsidir. Bu baxımdan da Şuşa bəyannaməsinin imzalanması iki ölkənin təhlükəsizliyinin təmin olunmasına öz ciddi töhfəsini verəcək. Əgər, Azərbaycan hər hansı bir təhdidlə üzləşərsə, Türkiyə Azərbaycanın yanında, əgər, Türkiyə hər hansı bir təhdidlə üzləşərsə, Azərbaycan Türkiyənin yanında olacaq. Bununla da biz iki qardaş ölkə arasındakı münasibətlərin daha da gücləndiyinin şahidi olacağıq".

***Arzu Qurbanzadə***

# Vüqar Rəhimzadə:

## "Media haqqında" Qanunda təsbit olunan 78 maddənin hər biri bir yenilik, gələcəyə çağırışdır

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan mətbuatının inkişafında yeni mərhələ kimi dəyərləndirilən, 9 fəsildən, 78 maddədən ibarət olan "Media haqqında" Qanunu təsdiqləyib. Yeni Qanunun qəbulunu zəruri edən səbəblər və perspektivlər barədə müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilir. Ümumi rəy bundan ibarətdir ki, hər dövrün, zamanın öz tələbləri var. Nəzərə alsaq ki, media hər bir ölkənin inkişaf səviyyəsini, yeniliyə, təkmilləşməyə nə qədər açıq olduğunu göstərir, bu halda məlum olur ki, 1999-cu ildə həmin dövrün reallıqları fonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" Qanunla sonadək addımlamaq mümkünsüz idi. Ölkə Prezidenti İlham Əliyevin çağırışlarında da daim bu məqam xüsusi yer alır ki, Azərbaycan mətbuatı dövrün tələblərini lazımi səviyyədə yerinə yetirməlidir. Ona görə ki, Azərbaycan dövləti daim yeniliyə, təkmilləşməyə maraq göstərir. Bu baxımdan cəmiyyətin idarə olunmasında, ayrı-ayrı sahələrin inkişafında əsas rol oynayan qanunlarımız da dəyişməz olaraq qalmır, vaxtaşırı qanunvericilik aktlarında əlavə və dəyişikliklərin edilməsinə zərurət duyulur və dövrün tələbləri nəzərə alınır. "Kütləvi informasiya vasitələri haqqında" Qanuna ötən 23 ildə 79 dəfə dəyişiklik edildiyi faktdır. Bu müddət ərzində digər sahələr kimi, mətbuatda da çoxsaylı yeniliklər baş verib, müasir çağırışlar ortaya çıxıb. Təbii ki, sözügedən qanuna edilən əlavə və dəyişikliklər bu çağırışları yüksək səviyyədə cavablandırmaq imkanlarına malik ola bilməzdi. Yeni Qanunun qəbulu məhz bu zərurətdən yarandı və artıq bu sənədin medianın inkişafına böyük yol açacağı barədə müsbət fikirlər səslənməkdədir. Qanunun özündə ehtiva etdiyi 78 maddəyə, eyni zamanda, müddəalara diqqət yetirdikdə media sahəsində gələcək inkişaf barədə aydın təsəvvür yaranır. Əsas olan budur ki, hər bir mətbu orqan, hər bir jurnalist yeni qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsinə öz töhfəsini versin.

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, müstəqilliyimizin bərpasından ötən 30 illik dövrə nəzər salsaq Azərbaycanda müstəqil mətbuatın inkişafının dövlət siyasətinin prioritetlərindən olduğunu görərik: "Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti bu sahədə də davamlı uğurlara yol açdı. Son 18 ildən artıq dövrdə bu si-



yasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi mətbuatın inkişaf səviyyəsində də özünü aydın şəkildə göstərir. Qeyd etdiyim kimi, mətbuat azadlığı hər bir ölkədə insanların öz fikirlərini sərbəst ifadə etmək arzusunu gerçəkləşdirir. Azad mətbuatın mövcud olduğu ölkələrdə təbii ki, demokratiya və siyasi plüralizm mühiti yaradılır. Təqdirəlayiq haldır ki, müasir müstəqil Azərbaycan söz və mətbuat azadlığının inkişaf səviyyəsinə görə MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur. Eyni zamanda, bu gün Azərbaycanın adı internetin azad olduğu ölkələr sırasındadır. Ölkə əhalisinin 85 faizi internet istifadəçisidir. Təbii ki, mətbuatımız bu reallıqlara sahib olmaq üçün çətin, eyni zamanda, şərəfli yol keçib. Azərbaycanda media üçün yaradılan şəraitə bəlkə də heç dünyanın inkişaf etmiş ölkələrində belə rast gəlmək mümkün deyil. Təbii ki, qlobal informasiya mühiti şəraitində ölkə mətbuatı da öz növbəsində fəaliyyətini yeni aktual çağırışlara uyğun qurmalıdır."

Bütün dövrlər üçün Azərbaycan dövlətinin, cəmiyyətinin mətbuatdan gözləntilərinə də diqqət yönəldən baş redaktor deyib: "Bu gözləntilər ondan ibarətdir ki, milli informasiya təhlükəsizliyi qorunsun, dövlətin, xalqın maraqları daim öndə dayansın, peşə etikasına riayət edilsin, media jurnalistikanın obyektivlik, qərəzsizlik kimi təməl prinsiplərini daim fəaliyyətində əsas götürsün. Gözləntilər sırasında milli ruhun, vətənpərvərliyin təbliği də əsas yer tutur. Yeni qanunda bu gözləntilərin həyata keçirilməsinə yönələn mexanizmlər daha təkmil formada öz əksini tapıb. Bir məqamı da xüsusi vurğulamalıyıq ki, biz bu gün qalib Azərbaycanın mətbuatından bəhs edirik. Təbii ki, qanunda postmünaqişə dövrünün reallıqlarının gerçəkləşməsinə medianın da töhfələri nəzərə alınaraq bu istiqamətdə görüləcək işlər xüsusi yer tutur. Azərbaycanın tarixi Zəfəri birliyimizin, həmrəyliyimizin dünyaya təqdimatı oldu. Döyüş meydanında Zəfər çalan Azərbaycan informasiya cəbhəsində mübarizəsini bu gün də uğurla davam etdirir. Artıq müharibə başa çatıb, yeni reallıqlar mövcuddur. Məhz bu reallıqlar mətbuatın inkişafında yeni mərhələnin başlanmasını şərtləndirdi ki, bu da öz növbəsində yeni qanunda bununla bağlı maddənin təsbit olunmasına yol açdı".

Vüqar Rəhimzadə reallıqlara söykənərək vurğulayıb ki, demokratikləşmə prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu hazırkı şəraitdə medianın üzərinə düşən vəzifələr nisbətən fərqli mahiyyət kəsb etməyə başlayır: "Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin, islahatların məntiqi nəticəsi olaraq mətbuatımız daha da saflaşır, təkmilləşir, dəyişməz olan prinsiplərinə söykənərək cəmiyyətin obyektiv informasiya ilə təminatında öz sözünü deyir. Bu gün siyasi mənsubiyyətindən, əqidəsindən asılı olmayaraq hər bir mətbu orqan dövlətçilik maraqlarını öndə saxlamalı, özünün gündəlik fəaliyyətində vətənpərvərlik, milli şüur kimi prinsipləri əsas tutmalı, yeni Qanunun tələblərinə əməl etməlidir".

Bu gün yeni texnologiyaların tətbiqinin aktual tələblərdən biri olduğunu qeyd edən baş redaktor deyib: "Hazırda dünyanı bürüyən, insanların sağlamlığına və iqtisadiyyata böyük ziyan vuran pandemiya şəraitində yeni texnologiyalar hər bir ölkənin gələcək inkişafı üçün önəmini təsdiqləyir. Müasir texnologiyalar imkan verir ki, internet jurnalistikasının əhatə dairəsi də genişləndirilsin. Bu gün artıq həyatımızın ayrılmaz parçasına çevrilən sosial şəbəkələr, informasiya məkanında inqilab adlandırılan internet ictimai rəyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Əsas məsələ hər bir mətbu orqanın internetdən istifadə zamanı informasiyanı əldə etmək və yaymaqla bağlı məsuliyyətini dərindən dərk etməsidir. Yeni Qanun bu məsələlərin həllində də öz sözünü deyəcək. Eyni zamanda, bu Qanun informasiya mühitinin sağlamlaşmasını, informasiya resurslarımızın artmasını, jurnalistlərin statusunun yüksəldilməsini, imicinin yaxşılaşmasını və nüfuzunun güclənməsini təmin edəcək. Bu baxımdan Media Reyestrinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə, Media Reyestrinin yaradılması ölkədə fəaliyyət göstərən mətbuat orqanlarının sayının müəyyənləşdirilməsi və onların akkreditasiyasının effektli şəkildə həyata keçirilməsini təmin edəcək. Media Reyestrinə məlumatların daxil edilməsi bu sahədə çalışan işçilərin hüquqlarının müdafiəsi, əmək münasibətlərinin tənzimlənməsi baxımından önəm kəsb edir. Digər tərəfdən, bu Reyestrin formalaşdırılması medianın inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində müsbət rol oynayacaq və pərakəndəliyin qarşısını alacaq. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin verilməsi könüllülük əsasında həyata keçiriləcək və məcburi xarakter daşımayacaq. Media Reyestrinin yaradılması və vahid jurnalist vəsiqəsinin verilməsi bu sahədə mövcud olan neqativ halların aradan qaldırılmasını təmin edəcək. Digər vacib məqam dövlətin jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ verməsidir. Hesab edirəm ki, bu, Azərbaycan Prezidentinin media mənsublarının sosial problemlərinin həllini daim diqqətdə saxlamasının daha bir əyani göstəricisidir.

Ümumilikdə "Media haqqında" Azərbaycan Respublikası Qanununun 78 maddəsinin hər biri bir yenilik, gələcəyə çağırışdır. Çalışaq ki, o çağırışları müstəqil, qalib Azərbaycanın mediası olaraq yüksək səviyyədə cavablandıraq. Bunun üçün hər bir sahənin, o cümlədən mətbuatın inkişafına xidmət edən qanunlarımız masaüstü kitabımıza, hər bir maddəsi fəaliyyətimizdə əsas prinsipə çevrilməlidir. Təbii ki, mətbuatda müəyyən boşluqlar var idi. Şübhə yoxdur ki, "Media haqqında" Qanun həmin boşluqları aradan qaldıracaq və mətbuatımız yeni inkişaf dövrünü yaşayacaq".

---

## "Savadlılıq məsələsi də ilk dəfə olaraq yeni Media qanununda öz əksini tapır"

**"Müasir çağırışlara cavab verən yeni "Media haqqında" qanuna ehtiyac var idi". Bu sözləri SİA-ya açıqlamasında BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu deyib.**

Vüqar Ziferoğlu bildirib ki, media ilə bağlı qanunların bir çoxu, o cümlədən "Kütləvi İnformasiya Vasitələri haqqında" qanun müasir tələbatlara cavab vermirdi: "Media hər zaman dinamik və dəyişkən bir sahə olub. Çünki texnologiyalar inkişaf edir, jurnalistikanın özü simasını və özünüifadəsini daim dəyişir. Bu gün biz XIX əsrlə XX əsr jurnalistikası arasında nə qədər böyük fərq görürüksə, XXI əsr jurnalistikasında da o qədər yeniləşmənin şahidiyik. Bu, seçilmə getdikdə daha qabarıq şəkildə özünü göstərir. Çünki janrlar dəyişir, jurnalistikanın prinsipləri, onun fəlsəfəsinə baxış dəyişir. Əslində son illərdə aparılan media islahatlarının ən vacib komponenti kimi dəyərləndirilməli olan yeni Qanun məhz, həm də müasir çağırışları əks etdirən sənəd kimi səciyyələndirilməlidir.

Qanunda media subyektlərinin dəqiq təsnifatının verilməsi çox mühüm məsələdir. Bu mənada tənzimlənən və tənzimlənməyən media növləri arasında də-




qiq sərhəd müəyyən edilməsi də vacib xüsuslardan biri kimi qeyd oluna bilər. Media haqqında" qanun bir tərəfdən bu günə qədər qanunun təsir qüvvəsindən kənarda qalan məsələləri tənzimləyir, digər tərəfdən isə artıq tənzimlənən münasibətlərin yeni nizamasalma mexanizmlərini müəyyənləşdirir. Media yeni haqqında Qanun həm də ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, in-



formasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması baxımından da qiymətləndirilməlidir. Hələ yaxın keçmişdə, on il bundan əvvəl indiki qədər ümumilikdə beynəlxalq jurnalistika üçün ciddi problem olmayan məqamlar, indi ən çox müzakirə olunan, prioritet, həlli üzərində müzakirələr aparılan məsələlər kimi aktualdır. Məsələn, biz bu gün artıq "informasiya ekologiyası", "informasiya manipulyasiyası", "kütləvi dezinformasiya axını", "rəqəmsal faşizm" kimi problemlərdən danışırıq.

Bütün bu yeni və aktual olan problemlər, heç şübhəsiz ki, bu və ya başqa dərəcədə media ilə bağlı qanunverilik aktlarında öz əksini tapmalıdır".

Jurnalistika fakültəsinin dekanı fikirlərinə əlavə edərək bildirib ki, media savadlılığı məsələsi də ilk dəfə olaraq qanunda öz əksini tapır: "Bu məsələ dünya ölkələrində, o cümlədən Türkiyədə prioritetdir. İnformasiya ilə iş prinsipinin müəyyənləşdirilməsi isə ayrı-ayrı media quruluşları arasında sağlam rəqabəti təmin edəcək. Həmçinin beynəlxalq təcrübədəki müxtəlif məqamların qanun layihəsinə salınması öz müsbət nəticəsini verəcək. Ümumiyyətlə, media-dövlət, cəmiyyət-media münasibətlərinin tənzimlənməsi baxımından da qanunun əhəmiyyətini vurğulamaq yerinə düşərdi. Unutmaq olmaz ki, Qanun qarşılıqlı münasibətləri tənzimləyən bir hüquqi aktdır. Bu mənada onda bütün maraqlar nəzərə alınmalıdır. Burda yalnız jurnalistlərin deyil, eyni zamanda bizim jurnalist olaraq bilgiləndirməklə, maarifləndirməklə, ictimai nəzarəti həyata keçirməklə xidmət etdiyimiz cəmiyyətin də maraqları təmin olunmalıdır. Əslində media sahəsində son illərdə aparılan islahatlar, müşahidə olunan müsbət dəyişikliklər, media qurumlarının, o cümlədən media subyektlərinin də fəaliyyət və hüquqlarının müəyyənləşdirilməsində, eləcə də media mənsublarının fəaliyyət azadlığı, jurnalistin peşə fəaliyyətinin təmin olunmasının hüquqi təminatını yaradan yeni qanunun qəbulunu, Azərbaycan mediasının inkişafa və yeni çağırışlara hazır olmasını hədəfləyən bir proses kimi qiymətləndirmək olar".

***Qönçə Quliyeva***

ANALİTİK

# Ermənistanın növbəti kapitulyasiyası: bu dəfə Aİ-Azərbaycan münasibətlərində

## Erməni siyasi-ictimai rəyi və KİV-ləri İlham Əliyevin Aİ ilə qaz anlaşmasını Bakının qələbəsi kimi qəbul etmək məcburiyyətindədir

**Avropa İttifaqının (Aİ) Azərbaycana 2 milyard avro maliyyə yardımı ayırması faktı hələ də Ermənistanda ciddi müzakirə vasitəsinə çevrilməkdədir. Erməni ictimai-siyasi rəyi, habelə KİV-ləri daha əvvəl Aİ-nin Azərbaycana ayırdığı 140 milyon dolların 2 milyard avro ilə əvəzlənməsi qərarı ətrafında necə deyərlər, baş sındırırlar, amma buna rəğmən, ortada olan reallığı da qəbul etmək istəmirlər. Daha dəqiq desək, Azərbaycan Prezidenti İlham Əliyevin Aİ-nin daha əvvəl Ermənistana Azərbaycandan demək olar ki, 20 dəfə çox maliyyə yardımı ayırmasına qarşı sərt və qətiyyətli mövqeyini nümayiş etdirməsindən sonra Avropa İttifaqının öz qərarını dəyişməsi faktını həzm edə bilmirlər. Əbəs deyil ki, erməni tərəfi artıq sözügedən məsələni Ermənistanın iqtisadi kapitulyasiyası kimi qiymətləndirirlər.**

### Armenianreport: ”Və budur, biz artıq məlumat almışıq ki, Avropa İttifaqı Azərbaycana 140 milyon dollar yerinə 2 milyard avro maliyyə yardımı təqdim edəcək”

SİA xəbər verir ki, Armenianreport saytının analitik yazarı Romella Mnasakanyan ”Yeni kapitulyasiya: Avropa İttifaqı bizim maraqlarımız hesabına Azərbaycanla sövdələşir” sərlövhəli yazısında ortada olan danılmaz faktı qəbul etməsi yerinə, dolayı vasitələrlə ”malalamağa” cəhd edir. Lakin unudur ki, artıq həmin fakt elə müəllifin yazdığı sərlövhədəki ”kapitulyasiya” ifadəsi ilə etiraf olunub. Müəllif yazır: ”Və budur, biz artıq məlumat almışıq ki, Avropa İttifaqı Azərbaycana 140 milyon dollar yerinə 2 milyard avro maliyyə yardımı təqdim edəcək”.

Erməni analitiki 140 millyon dolların 2 milyard avro ilə əvəzlənməsi qərarının səbəbini Azərbaycan Prezidentinin Aİ-ni daha əvvəl Ermənistana 20 dəfə çox vəsait ayırmasını sərt tənqid etməsi ilə əlaqələndirir.

Lakin bu da son deyil. Romella Mnasakanyan ermənilərlə yanaşı, Azərbaycan KİV-lərinin də bu məsələni qələbə kimi qiymətləndirməsini yazır və digər amilə də toxunur: ”Bakı KİV-ləri Əliyevin bu addımını qələbə kimi qiymətləndirirlər. Onlar yalnız maliyyə paketi vəsaitinin artırılmasına deyil,




həm də Əliyevin iştirakı ilə Fransa prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan respublikasının baş naziri Nikol Paşinyanın videoformat vasitəsi ilə keçirdikləri görüşünün necə keçirilməsinə də sevinirlər”, deyə erməni analitik yazarı açıq-aşkar qibtə hisslərini gizlədə bilmir.

### Erməni analitik yazarı: ”Misal üçün, ”artsaxın” statusu məsələsi heç bir halda müzakirə predmeti olmadı, görünən budur ki, hətta Fransa və Aİ ”artsaxın” taleyini boşa verdilər”

O, əlavə edir ki, görüş əsnasında bir çox məsələlərdə razılığa gəlinib ki, Bakı bu məsələlərin müzakirəsini uzun müddət idi ki, inadla tələb edirdi.

”Misal üçün, ”artsaxın” statusu məsələsi heç bir halda müzakirə predmeti olmadı, görünən budur ki, hətta Fransa və Aİ ”artsaxın” taleyini boşa verdilər”, yazan erməni siyasi yazarı növbəti dəfə bu uğursuzluğu və məğlubiyyəti real faktlardan uzaqlaşdırmaqla guya Azərbaycanın Avropanı ”qaz şantajı” ilə hədələməsi ilə əlaqələndirməyə çalışıb. Yəni aşkar erməni ”prizması” bu dəfə də özünü gözlətməyə macal tapıb. Halbuki, Avropa İttifaqının özü Azərbaycandan qaz almaq, yaxud tədarükünü artırmaq təklifini istəyib. Məlumdur ki, Qərbin Rusiya ilə soyuq münasibətləri və Ukrayna böhranı Avropa İttifaqını qayğılandırır. Belə olan halda Rusiyanın Avropaya nəql etdiyi qazı dayandırmaq ehtimalı artır və Avropanın müraciət edəcəyi yeganə tərəfdaşı yalnız qaz ehtiyatları kifayət qədər olan Azərbaycan ola bilərdi. Bütün bu gerçəklikləri erməni məkri ilə şərh edən analitik iddia edir ki, guya Aİ Azərbaycanın ”qaz şantajı” qarşısında dayana bilmədi və s. (?!).

### Erməni ”təfəkkürü” - sən demə, Rusiya Avropaya qaz nəqlini dayandırmamalıdır və bunu müttəfiqi Ermənistana görə etməlidir (?!)

Ona görə də Mnasakanyan eyni tərzdə davam edir: ”Qaz bu ölkənin (Azərbaycanın) əlində siyasi elementə çevrilib və uzağa hesablanmış geosiyasi palan həllərinin atributudur”.

Maraqlıdır ki, erməni analitiki burada da, sadəcə, sərsəm mövqe ortaya qoyub. Əlbəttə ki, istənilən dövlət öz iqtisadi və s. imkanlarını ölkənin təhlükəsizlik maraqları üçün sərf etməlidir. Hətta Ermənistanın hər hansı enerji resursları olsaydı, bu ölkə də mövcud vəziyyətdə həmin amili öz səmərəsinə görə istifadə edərdi. Görünür, Romella Mnasakanyanın düşüncə tərzi yalnız erməni ”təfəkkürü” ilə nəticə hasil edir...

Bu da azmış kimi, armenianreportun analitik yazarı Azərbaycanı Rusiya ilə eyniləşdirir və bu əsnada Rusiyanın da bostanı-



na daş atmağı unutmur. Gəlin gülünc ”məntiqə” diqqət yetirək. Sən demə, Rusiya Avropaya qaz nəqlini dayandırmamalıdır və bunu müttəfiqi Ermənistana görə etməlidir. Yəni Rusiyanın Avropaya qaz nəqlini dayandırmasının nəticəsi olaraq Aİ Azərbaycana ağız açdı və eyni zamanda, 2 milyard avroluq yardım paketi ayırdı. Gülünc iddiadır, deyilmi?

Beləliklə, erməni müəllif yalnız bir gerçəkliyi yazıb - bütün bunlar Ermənistanın növbəti kapitulyasiyasıdır və belə olan halda vəziyyətdən çıxış yolu tapmaq da elə erməni ictimai siyasi rəyinin öz məsuliyyətinə düşür...

***Rövşən RƏSULOV***

---

# “Bunlar Nikolu gözü götürməzlikdən irəli gəlir...”

**..Amma, maraqlıdır, deyim ki, bunlar yenə də özlərini o yerə qoymaq istəmirlər. Məsələn, o gün Ermənistanın keçmiş baş naziri olmuş Qrant Baqratyan, ”bu gün dərin iqtisadi, hüquqi, sosial və hərbi-siyasi böhran içində olan ölkənin” əldən getdiyini deməklə, guya ”həyacan təbili çaldığını” bildirir. Amma hakimiyyət səlahiyyətlisi, ölkənin iqtisadiyyat naziri Vahan Kerobyan ”narahatçılığa heç bir əsas olmadığını” deyərək erməniləri sakitliyə çağırır. Yəqin belə bir çağırışla bulunmaqda... nəsə bilir. Görünür, yaxınlarda ”yeni, orjinal ideyalarıyla” yenidən xalq qarçısına çıxacaq.**

Əslində, mən bunu elə belə, havadan demirəm,.. özünüz düşünün, vaxtilə iranlı turistləri koronavirusa qarşı peyvənd etmək adıyla Ermənistana cəlb etmək kimi ”ağıllı və möhtəşəm bir ideya” kimin ağlına gələrdi?

Təbii ki, indi bunları xatırlayıb xırda təfərrüratlara varmaq elə də vacib deyil. Vacib olanı odur ki, bu gün Ermənistan hələ ki,”ayaqdadır”. İndi əksər dövlətlərin koronavirusla bağlı məhdudiyyətləri aradan götürməyə başlaması, Kerobyanın gələcək planlarını əngəlləsə də, amma onun yaxınlarda Ermənistanın gələcək inkişafına töhfə verəcək yeni ideyalarla çıxış edəcəyi də istisna edilmir.

Sadəcə, ona mane olmaq lazım deyil. Amma həmişə belə olmur. Məsələn o gün ermənilərin Statistika komitəsi məlumat yayaraq 2021-ci ildə Ermənistanın dövlət borcunun daha 1 milyard 257 milyon dollar artdığını bildirib.

Əslində, buna görə təkcə Kerobyanı günahlandırmaq düzgün olmaz. Gərək ki, ermənilər xatırlamış olar, o hələ ötən il Ermənistanda turizmin inkişafına böyük töhfə verəcəyinə, ümumiyyətlə ölkəyə gələn turist artımını 319 faizə çatdıracağına söz vermişdi. Hə, indi...onda alınmasa da, bu dəfə yəqin ki, alınar. Ümumi dövlət borcuna əlavə olunn 1 milyard 257 milyon dollara gəlincə isə...elə də narahat olmağa dəyməz, yəni bu il ölkəyə gələn turistlər onu da qapadarlar.

”...2021-ci ildə Ermənistanı 73571 vətəndaş tərk edib. XXI əsrdə heç vaxt belə bir temp olmamışdı. İşsizlik səviyyəsi yeni iş yerləri hesabına yox, ölkədən işsizlərin miqrasiyası hesabına aşağı düşüb”. Başa düşmək olmur, bunları deməkdə sabiq baş nazir Qrant Baqratyanın məqsədi nədir. Məgər o bununla ermənilər arasında ixtişaş yaratmaq üçün ”körük basdığını” bilmirmi?

Qeyd edək ki, o hətta bununla da dayanmır, bu il ölkədə öz əcəli ilə ölənlərin, evlənib sonradan boşananların, daha nə bilim intihara cəhd, oğurluğa meyl edənlərin sayının xeyli artdığını da bildirir. Baqratyan ölkədə cinayətkarlıqla bağlı dəqiq faktlar da göstərməkdən çəkinmir. Onun dediyindən belə başa düşülür ki, guya Hikol ermənilərin baş naziri olandan bəri ölkədəki cinayətkarlıq 49 faiz artıb. Yenə də...guya hakimiyyət ölkədəki cinayətkarlığa qarşı mübarizəni nə qədər gücləndirsə, vəziyyət bir o qədər də pisləşib.

Cinayətkarlıq demişkən, o gün Ermənistan Milli Təhlükəsizlik Xidməti ölkədə casus şəbəkəsinin ifşası barədə yeni bir məlumat da yayıb. Belə ki, xidmətin yaydığı məlumata görə, hərbi əks-kəşfiyyatın həyata keçirdiyi tədbirlər sayəsində xarici xüsusi xidmət orqanlarının Ermənistan ərazisində kəşfiyyat şəbəkəsi yaratması ilə bağlı faktiki məlumatlar əldə edilib. Sən demə, ifşa edilənlər Ermənistan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə və xarici təhlükəsizliyinə zərər vurmaq istəyirmişlər ki, bunun da qarşısı vaxtında alınıb.

Bəs, Nikol və onun ətrafını ”biabır” etməyi öhdəlik kimi qarşısına məqsəd qoyan Baqratyan niyə hökumətin bu uğurlu fəaliyyəti ilə bağlı danışmaq istəmir? ...Belə görünür ki, hökumətin bu ”uğurlu fəaliyyəti” ilə bağlı biz deməsəydik, heç kim də heç nə bilməyəcəkdi. Əslində bunlar hamısı Nikolu gözü götürməzlikdən irəli gəlir.

...Təbii ki, belə bir böyük cinayət işinin qarşısının alınmasında 49 faizlik ”xırda cinayətkarlıq” nədir ki?

...Amma deyim ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin ölkədəki casus şəbəkəsinin ifşası ilə dediklərinə ermənilərin çoxu hələ də inanmaq istəmirlər.

***Ağasəf Babayev***

ARAŞDIRMA

# Yeni evlilər tək, yoxsa ana-ata ilə yaşamalıdır?



**Evlilik insanın həyatında ən mühüm dönüş nöqtələrindən biridir. Bundan əvvəl uşaqlıq və yeniyetməlik dövrlərini saymasaq, məktəbi bitirmək, valideynlərdən asılı olmayan həyat qurmaq dövrü var. Bu həyat dövrünün ən vacib qərarı isə fərdin karyerasını qurmaq və özünə həyat yoldaşı tapmaqdır. Bu dövrdə bir araya gələn və ömürlərini birlikdə keçirməyə qərar verən cütlük evlənməyə qərar verdikdə yeni bir həyat dövrü alınır. Təbii ki, hər yeni həyat dövrü kimi burada da yaşanacaq ilk şey stress və dəyişikliyə qarşı müqavimətdir. Sistem dəyişir və yeni sistemə uyğunlaşmağa ehtiyac var.**

Evləndikdən sonra insanın həyat tərzi dəyişəcək, yeni məsuliyyətlər üzərinə düşəcək, ən əsası isə fərd ailəsindən müstəqil olub öz ailəsini, həyatını qurmaq üçün yeni səhifə açacaq. Bu həm də böyümək deməkdir... Böyümək gücləndirir, həm də çətinliklərlə bizi baş-başa qoyur. Bir çox gənclər ailələrinin təhlükəsiz və rahat qanadları altından çıxıb uçmağa başladıqları zaman böyük daxili gərginlik yaşayırlar, xüsusən də çox



qoruyan və bütün məsuliyyəti öz üzərinə götürən ailələri varsa, gənc ailəni də tərk edərək getməyə məcbur olur.

Evlilik qərarı ilə daha əvvəl tanışlıq dövründə olmayan bir çox məsələlər ortaya çıxa bilər. Məsələn, hər iki tərəfin ailələri ortaya çıxmağa başlayır, xüsusən də iki ailə arasında münaqişə və ya konflikt varsa və bu vəziyyət yaxşı idarə olunmursa, bu, cütlüyün münasibətində özünü göstərir. Xüsusilə nişan dönəmində və ya toya hazırlıq zamanı çoxlu problemlər görürük. Cütlüklərin ortaq qərarlar verməsi, güc balansı, gözləntilər, fikir ayrılıqları, pul məsələsi, ailələrdəki mədəni fərqliliklər və s. kimi problemlər çox ola bilər.

Uyğunlaşma prosesi evləndikdən sonra da davam edir. Bu səbəbdən evliliyin ilk 1-2 ilində boşanmalara çox rast gəlirik. Bir-birinə öyrəşə bilməyən, evlilik həyatına alışa bilməyən, aralarındakı fərqləri qəbul edib uyğunlaşa bilməyən cütlüklər arasında böyük münaqişələr olur və bəzən bu, ayrılıqlarla nəticələnə bilir. Yeni qurulan evlilik həyatının yeni qaydaları və



gözləntiləri var. Əgər cütlük arasında sağlam ünsiyyət yoxdursa, əvvəllər bu məsələlərdən danışmayıblarsa, münaqişələri yaxşı idarə edə bilmirlərsə, davalar qaçılmazdır.

Bundan əlavə, evliliyin ilk illərində, xüsusən də böyük ailələrdə problemlər yaşanırsa və bu vəziyyətlərlə bağlı yaxşı bir barışıq və əlaqə idarə olunmazsa, bu gərginlik cütlüyün münasibətlərində də özünü göstərir. Xüsusən də ailə-



si (ailə üzvü) ilə həyat yoldaşı arasında qalan insan ən çox təsirlənən şəxsdir.

Evliliklərdə ən çox rast gəlinən problemli sahələr evin büdcəsi, pul, evdə iş bölgüsü, qadın və kişi rolları, intim həyatdır. Büdcənin idarə edilməsi və evdə əmək bölgüsü cütlük eyni evdə yaşamadan əvvəl müzakirə edilməlidir. Münaqişələrə səbəb olmasın deyə ümumi zəmində anlaşmaq lazımdır, əslində evlilik yeni işə başlamaq kimidir. Necə ki, yeni işə başlayanda bütün detallar nəzərə alınır, güzəştə gedir, müqavilələr və vəzifə təlimatları hazırlanır, eyni şey evlilik üçün də keçərlidir.

Cinsi əlaqəyə gəlincə, cütlüyün bu mövzuda uyğun olması, gözləntilərin və ehtiyacların müzakirə edilməsi çox əhəmiyyətlidir. Çox vaxt evliliyin ilkin dövrlərində yaşanan cinsi uyğunsuzluqlar həm cinsi həyatda, həm də ümumiyyətlə uzun müddətli əlaqələrdə özünü göstərir, münaqişələrə və bir-birindən uzaqlaşmaya səbəb olur.

Yeni evli cütlüklərdən xüsusilə də xanımların oğlanın ailə üzvlə-



rindən ayrı yaşamaq istəməsi günümüzün aktual mövzularındandır. Yeni evli xanımlar bunu daha çox həyat yoldaşı ilə aralarında soyuqluq olmasın, evdə daha rahat olsun, bir sözlə loru dildə desək "əlinə-ayağına dolaşan olmasın" deyə istəyirlər.

Bəzən də bu yeni gəlinlərin utancaqlığından qaynaqlanır. Bəzi qızlar qaynanalı evdə özünə bir boşqab yemək çəkməyə belə utanır.

Digər səbəb isə gəlinin övladını nənə-baba tərbiyyəsi ilə deyil də, öz üsulu və taktikası ilə böyütmək istəməsidir. Hamıya məlumdur ki, nənə-baba yanında çox zaman keçirən uşaqlar daha ərköyün olur. Bu da gələcək həyatlarında problemlərlə başa çıxmaq baxımından həmin uşaqlarda çətinlik yaradır.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və psixoloqların fikirlərini öyrənib.

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Əslində, ağ-saqqallı, ağbirçəkli evdə yaşamaq çox gözəldir. Amma indi elə zəmanəyə gəlmişik ki, bir çox gənclərimiz mövcud şəraiti, ailənin maddi durumunu nəzərə almadan ayrı yaşamağa daha çox



üstünlük verir, müstəqil olmaq istəyirlər. Onların ayrı yaşaması üçün ailənin maddi imkanı olmadıqda isə tərəflər arasında narazılıq yaşanır.

Gənc ailələrin valideynlərlə birgə yaşamağının həm müsbət, həm də mənfi tərəfləri var. Müsbət tərəfi odur ki, ailə büdcəsində gəlir daha çox olur, o evdə bərəkət olur, artıq məsrəflərə yol verilmir, uşaq dünyaya gələndə onun sağlam böyüməsinə köməklik olur və s. Mənfi tərəfinə gəldikdə isə, valideynlərlə birlikdə yaşayanlarda məsuliyyət hissi az olur, sərbəst qərar verə bilmirlər, romantik dövrlərini istədikləri kimi yaşaya bilmirlər".

**Psixoloq Fidan Namazova:** "Valideynlərin yeni evlənən cütlüklərlə bərabər yaşamaq istəməsi, əsasən, ya maddi sıxıntılardan, ev ala bilməmək səbəbindən olur, yaxud da müəyyən valideynlər prinsipə bərabər yaşamalarını istəyirlər. Bunu, əsasən də, oğlanların anaları və yaxud da ataları istəyir.



Burada əsas səbəb oğuldan, övladdan ayrıla bilməməkdir. Bu istək də bəzi səbəblərdən qaynaqlanır. Məsələn, oğuldan maddi olaraq asılı, onun gəlirini kontrol etmək və yaxud özünü kontrol etmək, onun ailəsini yaxşı mənada düşünüb müdaxilələr etmək və hardasa öz avtoritetini təsdiqləmək ki, "mənim sözüm burada keçir, mənim fikrimlə övladım hərəkət etməlidir, həmçinin də onun həyat yoldaşıyam" və s.

Çox diqqətli olmaq lazımdır. Çünki bu müdaxilə ilə münaqişə arasında çox incə bir xətt var və əsasən ailədə şiddət və yaxud da boşanmalar, ailədaxili münaqişələr bu səbəblərdən əmələ gəlir.

*Ardı Səh. 13*

# Yeni evlilər tək, yoxsa ana-ata ilə yaşamalıdır

Əvvəli Səh. 12

Yəni, ilk baxışdan başqa bir səbəb görsənsə də araşdırılanda bu valideyn tərəfindən gənc ailədə yaranan gərginlik, cütlüklərin bir-birinə qarşı aqressiyasına dönüşür.

Burada mentalitet də çox rol oynayır. İstənilən halda valideynlərin ailə qurmuş övladı ilə bərabər yaşaması doğru deyil. Burada heç bir köməkdən söhbət gedə bilməz. Yəni, əgər bu maddidirsə, köməyi kənardan da etmək olar. Mənəvi köməyi də həmçinin. Məsafə hər bir münasibətdə olduğu kimi, burada da çox vacibdir.

Düşünürəm ki, bu, bir qayda olaraq tənzimlənməlidir. Yəni, artıq hər kəs bir ailədirsə, bu ailənin də öz başçısı var. Hər ailədə kişi və qadın başçı var. Bir ailədə iki nəfər başçı, iki nəfər qadın, iki nəfər kişi olmalı deyil.

Valideynin övlada olan köməyini bugünə kimi etmək lazım idi. Bugünə kimi onu kişi və yaxud qadın kimi yetişdirmək lazım idi. Bugünə kimi ona ailə dəyərlərini başa salmaq lazım idi. Əgər bu günə kimi edilibsə və yaxud edilməyibsə artıq variant yoxdur. Yəni, bundan sonra heç nə etmək mümkün olmayacaq. Artıq buraxmaq lazımdır ki, insan özü ailəsini idarə etməyi öyrənsin. Səhv edərək, doğru addımlar atmayaraq və yaxud da ataraq. Bizim bir qəşəng söz var: "öz yağında bişməlidir". Hər bir ailə, hər bir insan, hər bir gənc özü öz yağında bişməyi öyrənməli və bu şansı valideynlər uşaqlara əsirgəməməlidir.

Birmənalı şəkildə əgər şərait və imkan varsa ayrı yaşamalarına imkan verilməlidir. Valideyn tərəddüdlə istəyirsə övladı ilə bərabər yaşasın, yəni, bu eqonun, qısqanclığın, azadlığı uşağa verməməyin səbəbidir. Burada başqa bir səbəb ola bilməz.

Kişilər çox vaxt vurğulayırlar ki, "anam, atam mənsiz yaşaya bilməz, onlara çətin olar və yaxud anam təkdir, atam təkdir". Bu da valideynin övlada yüklədiyi bir yükdür. Bundan öncə qeyd etdiyim kimi hər kəs öz yağında bişməlidir, həmçinin valideyn də özü sərbəst yaşamağı öyrənməlidir. Yəni, nə uşağın həyatı valideyndən asılı olmamalı-
dır, nə valideynin həyatı uşaqdan asılı olmalı deyil. Valideyn də uşağını evləndirənə, ərə verənə kimi öz həyatını artıq qurmalıdır. Onun öz məşğuliyyəti, işi, ailəsi, həyata tutan başqa şeylər olmalıdır ki, öz həyatını, xoşbəxtliyini, sevincini yalnız uşağın həyatından görməsin.

Bizim ölkədə bu balans çox pozulub. Övladım üçün yaşamaq, övladının xoşbəxtliyindən xoşbəxtlik almaq, bunlar təbii ki, ikinci dərəcədə olan bir prosesdir, bu olmalıdır və bu varsa nə gözəl. Amma bundan ayrı da valideynin öz həyatı olmalıdır, öz maraqları, öz məşğuliyyətləri, öz dostları, öz qohumu, öz dünyası olmalıdır ki, bu öz həyatını başqasının həyatının içində yaşamasın. Bu çox önəmlidir".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

Şəhər sakini Paşa Məmmədov: "Mən evin tək övladıyam. Lakin ailə qurduqdan sonra ayrı yaşamaq istəyirəm. Bunu mənim ailəm də belə istəyir. Düşünürəm ki, imkan varsa, belə daha yaxşıdır. Həmçinin, ayrı yaşayanda problem, söz-söhbət də az olur, arada sərhəd qorunur".

Şəhər sakini Bahar Qasımova: "Məncə, evlilər ayrı qalmalıdır. Nə qədər bir-birini sevsələr, yaxşı tanısalar da, bir evin içində yenidən kəşf edirlər bir-birini. Ona görə də düşünürəm ki, yeni ailə quranlara sərbəstlik vermək lazımdır ki, onlar da müdaxilə olmadan özləri idarə edə bilsin ailəni.

Əlbəttə valideynin heç bir ziyanı yoxdur, amma sərbəstlik daha yaxşıdır. İnşallah, mən də çalışacam ki, gələcəkdə övladlarıma sərbəst yaşayış yaratmaq üçün əlimdən gələn hər şeyi edim".

Şəhər sakini Aylin Məmmədova: "Yeni evlilərin valideynlərlə yaşaması düzgün deyil. Düzdür, bəzən məcburiyyət qarşısında birlikdə yaşamalı olursan. Amma ailə içində ailə olmaz. İstər-istəməz anlaşılmazlıq yaranır. Problemlərə səbəb olur. Nə qədər ayrı olsan, o qədər yaxşı olur. Aradakı pərdə götürülmür".

***Ayşən Vəli***

# Ermənistanda

## yeni kapitulyasiya qorxusu

Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin VIII iclası revanşist ermənilərin kürkünə birə salıb və Azərbaycanın uğurlarını həzm edə bilməyənlər həm də böyük qorxu içindədirlər. İndi Avropanın Azərbaycana marağını, Qoca Qitənin ölkəmizlə əlaqələrə üstünlük verdiyini müşahidə edən və bunu gözü götürməyənlər münasibətlər fonunda növbəti kapitulyasiya qorxusu yaşayırlar. Reallıqları, Azərbaycanın yaratdığı reallıqları görmək istəməyənlər artıq Avropanın ölkəmizlə əlaqələrə üstünlük verdiyinin dəfələrlə şahidi olandan sonra belə qənaətə gəliblər ki, Ermənistan növbəti dəfə, yəni, özlərinin də ifadə etdikləri kimi, yeni kapitulyasiya qarşısındadır.

Doğrudur, Azərbaycan öz əlaqələrini genişləndirdikcə, iqtisadi münasibətləri artdıqca imkanları da, gücü də, qüdrəti də artır. İşğalçılığı dövlət siyasəti hesab edən Ermənistandan ən böyük fərqimiz də elə bundadır və ölkəmiz iqtisadi yüksəlişlə daha böyük nailiyyətlərə ümid edir. Əslində, ermənilər özləri də bunun şahidi oldular ki, Azərbaycanın iqtisadi gücü, qüdrəti müqaisəyə gəlməz dərəcədə yüksəkdir və bunun qarşısında Ermənistan kimi çılız bir dövlət, səfalət içində inləyən bir ölkə dayana bilməz. Bu fakt özünü 44 günlük müharibədə də təsdiq etdi və təkcə Ermənistandakılar deyil, bütün dünya erməniləri üçün bu bir dərs oldu.

Bu da bir həqiqətdir, bir reallıqdır ki, Azərbaycan öz münasibətlərini, əlaqələrini genişləndirdikcə, həm də bütün dünyada söz sahibinə çevrilib və bundan sonra da belə davam edəcək. Yəni, Avropa ölkələri ilə, yaxud dünyanın hərhansı nüfuzlu ölkəsi ilə əlaqələrini genişləndirən bir ölkə, təbii ki, heç bir əlaqələri olmayan digər ölkə ilə eyni statusa, eyni məqama malik ola bilməz, müqaisə edilməz dərəcədə dəfələrlə üstün olar. Artıq çoxdandır ki, bu belə olub və məhz indi də, hal-hazırda da bu belədir, hansıki revanş arzusunda olan ermənilər bundan bərk qıcıqlanıblar. Xüsusilə, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin VIII iclası, bu iclasın Azərbaycan paytaxtında keçirilməsi, ölkəmizin daha böyük uğurları və strateji hədəfləri düşmənlərinin gözünə şiş kimi batıb və onlar hesab edirlər ki, Azərbaycan bundan sonra istənilən şərtləri diqtə edə, onlar isə bunun qarşısında aciz qalarlar. Bir sözlə, ölkəmizi düşmən gözündə görənlər, Azərbaycanın nüfuzunun artması fonunda yeni kapitulyasiyaya imza atacaqları qorxusu ilə yuxularını belə qarışdırıblar. Sözsüz ki, bu yeni kapitulyasiya dedikdə onlar daha yeni təslimiyyət, öz itgilərini nəzərdə tuturlar və hardasa qorxmaları da başadüşüləndir.

Bilirik ki, cari ilin yanvar ayının sonuna olan məlumata görə, ötən ilin yayında Avropanın qaz anbarlarına vurulan qazın 81 faizinin istifadə edildiyi haqda informasiya yayılıb. Bu barədə "Qazprom" "Gas Infrastructure Europe" şirkətinin məlumatlarına istinadən məlumat yayıb. Qeyd olunur ki, anbar boşalmaq üzrədir və bu barədə həyəcan təbili Avropada çoxdandır çalınır, enerji təhlükəsi ilə qarşılaşacaqları bəyan edilir. Bildirilir ki, yanvarın 30-na Avropanın yeraltı anbarlarında aktiv qazın həcmi 27,2% və ya 14,2 milyard kubmetr təşkil edib. Aktiv, yəni hasilata hazır qazın ümumi həcmi 38,1 milyard kubmetrdir. Ümumiyyətlə, Avropanın anbarlarında qalan qazın həcminin tarixi minimuma çatdığı məlum olur. O da artıq məlumdur ki, belə bir çətin vəziyyətdə enerji təhlükəsizliyi baxımından Avropanın Azərbaycandan gözləntiləri böyükdür. Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin VIII iclasının Azərbaycan paytaxtında keçirilməsi həmin gözləntilərə olan inamı da təsdiqləyir. Elə bu gözləntilər, bununla əlaqədar ölkəmizin məhz Avropanın enerji təhlükəsizliyinə töhvəsi, bundan sonrakı daha sıx və isti münasibətlərin olacağı qisas hissi ilə alışıb yanan erməni xislətini ürküdüb. Ona görə ürküdüb ki, revanş kimi dərsəm fikirlərinə, öz danışdıqları nağıllara bundan sonra özləri belə inana bilməyəcəklər, nəinki Ermənistanın daxili auditoriyası. İndi Avropanın marağında Ermənistan deyil, Azərbaycanın olduğu gün kimi aydındır və bu heç də təsadüfi sayılmır, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan,



cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən düşünülmüş, məqsədyönlü, uzaqgörən siyasətin məntiqi nəticəsidir.

Məlumdur ki, sözügedən layihənin uzunluğu təxminən 3500 kilometrdir və əsas məqsəd Avropaya qaz tədarükünün təhlükəsizliyini artırmaqdır. Bu həm də Avropanın Rusiya qazından asılılığını azaltması, minimuma endirməsi deməkdir. Xüsusilə, Rusiya ilə son gərgin münasibətlər fonunda Avropa bu məsələdə nə qədər maraqlı olduğu da təkzibedilməzdir. Azərbaycanda isə təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr təşkil edir. Təsadüfi deyil ki, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson Avropaya qaz nəqlinin artacağına ümid etdiyini bildirib. Onun sözlərinə görə, mümkün tədarük həcmi ilə bağlı müxtəlif təxminlər də var. O, eyni zamanda qeyd edib ki, ümumilikdə həcmlərin artırılması üçün, xüsusən də Azərbaycan tərəfdən müəyyən addımlar atıla bilər. "Hazırda bizim istismar boru kəmərimiz var, lakin o, yayın əvvəlinə tam gücünə çatacaq, hansıki, Avropanı 10 milyard kubmetr təbii qazla təmin edəcək", deyən Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Azərbaycana, ölkəmizlə olan əlaqələrə ümid etdiyini, inandığını bəyan edib. Nəticə etibarı ilə bu inam, bu ümidlər də bir çoxlarını, təbii ki, Azərbaycanın düşmənlərini narahat etməyə bilməz. Mövcud reallıqlar Azərbaycanın bundan sonra məhz Avropada daha böyük nüfuzundan xəbər verir, hansıki bu, axmaqcasına revanş həvəsinə düşənlərin yuxusunu qaçırıb.

Avropa İttifaqının Azərbaycana əvvəllər nəzərdə tutulan və ayrılması planlaşdırılan 140 milyon dollar əvəzinə, 2 milyard avro məbləğində maliyyə yardımı paketi təqdim etməsi daha bir uğur, ölkəmizin növbəti uğurudur və düşmənlərimizi əlbəttə ki, bu hal sevindirə bilməz. Doğrudur, Azərbaycan qonşu Ermənistan kimi yansısa yardıma, ayrılacaq vəsaitə ehtiyac duymur və bu zamana qədərki kimi öz hesabına hər şeyin öhdəsindən gəlmək iqtidarındadır. Məsələ burasındadır ki, əvvəla torpaqları işğal olunan, işğal nəticəsində dağıdılan, viran qoyulan və bərpasına ehtiyac duyulan, vəsait tələb olunan Azərbaycan torpaqları olduğu halda ölkəmizə əvvəllər nəzərdə tutulan az məbləğdə vəsait ayrılması ədalətsizlik idi və indi işğaldan torpaqlarını azad etməklə tarixi ədaləti bərpa edən Azərbaycan, öz uğurlu strategiyası ilə bu ədaləti də bərpa etdi. Digər tərəfdən Ermənistan tərəfində olan bəzi qüvvələrə, Azərbaycanı düşmən bəlləyən qüvvələrə bu bir dərs oldu. Dərs oldu ki, heç də bu vaxta qədər gördükləri təkrar olunmayacaq və Azərbaycan bundan sonra ədalətsizliyə imkan verməyəcək və məhz bu da yeni kapitulyasiya barədə düşmənlərimizi düşünməyə, qorxuya düşməyə vadar edir.

Bəli, ölkə başçısı, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bir-birinin ardınca qələbələrə imza atır. Azərbaycan dinamik inkişafdadır və bu dinamika bütün sahələrdə həm özünü biruzə verir, həm də uğurlu nəticələr vəd edir. Bunu isə ölkəmizin düşmənləri görəndə daha çox qıcıqlanırlar. Azərbaycan Prezidenti cənab İlham Əliyevin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı sədri Çarlz Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdən və bu görüşün nəticələrindən düşmənlərimiz heç də məmnun deyillər. Çünki, rəsmi Bakının uzun müddətdir ki, təkidlə tələb etdiyi bir çox şeylər bu görüş zamanı əldə olundu. Məsələn, ermənilərin uydurduqları qondarma status məsələsinə baxılmadı da. İndi ermənilər bu məsələni şərh edərkən bildirirlər ki, bu fakt Avropa İttifaqının Azərbaycan qarşısında təslim olmasıdır, amma əslində bu, ədalətin növbəti təntənəsi, qələbəsidir ki, ermənilərin boğazlarından məhz bu ötüb keçmir.

Həqiqətən də Azərbaycanın geosiyasi müstəvidə mövqeyi durmadan möhkəmlənir və bunu ermənilər görməməzlikdən gələ də bilməzlər. Əbəs yerə deyil ki, erməni cəmiyyətində Paşinyanın növbəti dəfə təslim olduğu fikirləri dolaşır. Hətta bildirilir ki, Ermənistanın baş naziri hansısa yeni kapirulyasiyaya hazırlaşır. Xüsusilə, Paşinyanın Azərbaycanla sülh müqaviləsinə razılaşmağın vacibliyi barədə son sözləri revanşistlərin canına vəlvələ salıb və Ermənistanda yeni kapitulyasiya qorxusu hökm sürür, hansıki daha bir təslimiyyətə imza atmaq qorxusu yuxularını ərşə çəkib. Azərbaycanın isə yolu sülh, inkişaf, tərəqqi yoludur, kimsəni qorxutmaq kimi bir məramı yoxdur. "Xain xoflu olar" zərb məsəlində deyildiyi kimi, həqiqətən də xainlərin xislətləri üzrə xof içində olmaları, qorxuya düşmələri də anlaşılandır.

***İnam Hacıyev***

# Böyük Qayıdış işinə töhfə




***Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi cari ilin qrant müsabiqəsi çərçivəsində keçmiş məcburi köçkünlərin problemlərinin öyrənilməsinə, onların aradan qaldırılması yollarının araşdırılmasına, eyni zamanda, yurd yerlərinə qayıtmaları ilə bağlı istək və arzularının öyrənilməsinə həsr edilmiş çox sayda layihələrə dəstək vermək haqqında qərar qəbul etmişdir. Bu sıradan Azadlıq Hərəkatçıları İctimai Birliyi "Yurda qayıdış mövzusunda verilişlərin hazırlanması və nümayiş etdirilməsi" mövzusunda layihənin icrasına başlamışdır. Layihə ilə bağlı qurumun sədri və layihənin rəhbəri Təhmasib Novruzovun fikirlərini diqqətinizə çatdırırıq:***

- Otuz ilə yaxın bir müddətdə mənfur erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımız, nəhayət, Müzəffər Ali Baş Komandanın qətiyyəti və ordumuzun şücaəti sayəsində 2020-ci ilin payızında, 44 günlük müharibə nəticəsində işğaldan azad edildi. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin dəfələrlə dediyi kimi, indi başlıca vəzifə bu torpaqları yenidən abadlaşdırmaqdan və keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışını təmin etməkdən ibarətdir. Dövlətin bu sahədə çox ciddi proqramı var və bu proqram artıq icra olunmağa başlamışdır. Şuşada aparılan böyük quruculuq, bərpa və abadlaşdırma işləri, Ağdamda salınması nəzərdə tutulan müasir tipli möhtəşəm şəhərin baş planının təsdiqi və ilkin işlərə start verilməsi, Zəngilanın Ağalı kəndində yeni smart tipli kəndin tikintisinin artıq başa çatması, Füzulidə dünyanın ən qısa müddətə tikilən hava limanlarından birinin artıq uçuşları qəbul etməsi, avtomobil, dəmiryol, elektrik, qaz, su, rabitə infrastrukturlarının tamamilə yenidən qurulması işlərinin sürətlə aparılması və digər həyata keçirilən möhtəşəm layihələr tezliklə bu yerlərə qayıdışın başlayacağına əminlik yaradır. Ona görə biz də, bir vətəndaş cəmiyyəti qurumu olaraq, Böyük Qayıdışa töhfəmizi verməyi özümüzə borc bilirik. Bu məqsədlə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin ötən ilin sonunda elan etdiyi qrant müsabiqəsinə "Yurda qayıdış mövzusunda verilişlərin hazırlanması və nümayiş etdirilməsi" layihəsi ilə müraciət etdik. Çox şadıq ki, layihəmiz müsabiqənin qalibi oldu və biz artıq onun icrasına başlamışıq.

Layihə fevralın 1-dən mayın 1-dək müddətdə, Bakı şəhərində məskunlaşan keçmiş məcburi köçkünlərin yaşadığı Qobupark yaşayış massivində icra olunacaq. Səkkiz verilişdən ibarət olacaq, SƏS TV onlayn televiziyasında mart-aprel aylarında nümayiş etdiriləcək layihənin həyata keçirilməsi on illər boyu yurdundan ayrı düşmüş insanların doğma yurda dönüşünün təbliğ və təşviq edilməsi ideyasından irəli gəlir. Layihə çərçivəsində hazırlanacaq və nümayiş etdiriləcək verilişlərdə yurda qayıdışla bağlı təkcə keçmiş məcburi köçkünlərin düşüncələri öyrənilməyəcək, eyni zamanda tərəddüd edənlərin tərəddüdlərinin səbəbləri, onları narahat edən başlıca problemlər araşdırılacaq, müzakirə ediləcək və problemlərin həlli ilə bağlı təklif və təşəbbüslər irəli sürüləcək. Keçmiş məcburi köçkünlərin bilavasitə məskunlaşdıqları yerlərdə görüşlərin keçirilməsi, onların öz fikir və düşüncələrini sərbəst ifadə etmələri nəzərdə tutulub ki, bu da problemin birbaşa mənbədən öyrənilməsində mühüm əhimiyyətə malikdir. Azad edilmiş torpaqlara keçmiş məcburi köçkünlərin qaytarılması bu yerləri yenidən dirçəltmək, VƏTƏNLƏŞDİRMƏK baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün doğma yurda dönüşlə bağlı tərəddüd edən insanların bu tərəddüdlərinin araşdırılması, ümumiləşdirilməsi, onların aradan qaldırılması ilə bağlı müvafiq təkliflərin verilməsi, gələcəkdə qarşılaşacağımız bir sıra problemlərin əribaşdan həllinə yardımçı ola bilər.

Bir sözlə, layihənin həyata keçirilməsində başlıca məqsəd keçmiş məcburi köçkünlərin azad olunmuş torpaqlara qayıdışı ilə bağlı Dövlət Proqramının yerinə yetirilməsi işinə dəstək verməkdən ibarətdir. Bu məqsədlə hazırlanacaq və nümayiş etdiriləcək verilişlərdə keçmiş məcburi köçkünlərin yurda dönüşlə bağlı təşviq edilməsi, xüsusilə, gəncləri narahat edən problemlərin öyrənilməsi, onların ümumiləşdirilməsi və təkliflərin müvafiq qurumlara çatdırılması qarşıya qoyulan əsas vəzifələrdir.

# ""Təsib"i oyanmış ermənininin qabağında dur, görüm, necə duracaqsan..."

***"...Dərinləşən,.. şərtlənən, o cümlədən Ukrayna ətrafında geosiyasi böhranla Rusiyanın təcrid olunması artıq Azərbaycan üçün yeni problemlər yaradır və gələcəkdə daha da çox yaradacaq". Ay can, ay can...***

Qeyd edək ki, bunu Ermənistanda özünü "Avropa Partiyası" kimi təqdim edən qrumun sədri Tiqran Xzmalyan bildirir. Onun bu fikirlərindən ermənilərin bununla bağlı şadyanalığa hazırlaşdıqları da açıq sezilir. Amma deyəsən, bu ümidlə onların sevincləri gözlərində qalacaq.

Beləliklə, Xzmalyan nə düşünür? Deməli onun sözlərinə görə, bu gün Kremlə qarşı ABŞ və Qərb tərəfdən artmaqda olan sanksiya və təzyiqlər, guya Azərbaycan və Türkiyə də çətin siyasi vəziyyətə salmaqdadır.

Maraqlıdır ki, erməni "partiya" sədri buna ən böyük əsas kimi, Avropa İttifaqının Azərbaycanla apardığı "qaz sövdələşmələr hesabına duruş gətirdiyini unudur?

Qeyd edilməlidir ki, hazırda qeyri dəqiq məlumatlara görə, Rusiyanın müxtəlif bölgələrində 202 mindən artıq erməni əməkçi miqrantı kimi işləyir. Xatırladaq ki, bu, MDB məkanında ən böyük miqrant saylarından biridir. Təsəvvür edin, cılız bir ölkənin əməkçi insanlarının yarısı, bəlkə də yarıdan çoxu öz ölkəsindən kənarda çalışıb, Ermənistandakı ailəsinin yaşamasını təmin edir. İrəvandakı ermənini isə, həmən miqrant ermənilərin az-çox əldə etdiyi qazancdan məhrum ola biməк ehtimalı elə də narahat etmir?

Onu da qeyd edək ki, ötən ilin təkcə yanvar-avqust aylarında Rusiyada işləyən miqrant ermənilər Ermənistana 281 milyondan artıq dollar göndəriblər. Təbii ki, bu Ermənistan kimi kasıb bir dövlət üçün bu böyük vəsaitdir. Görən, özünü partiya sədri kimi təqdim edən biri bunları başa düşmürmü?



si"ni göstərir. Ermənıyə görə, Avropanın qazla bağlı, "alternativ kimi", Azərbaycana üz tutması, təbii ki, Moskvada elə də yaxşı qarşılanmayacaq. Yəni bu, Kremldə Bakıya qarşı "böyük qıcıq" yaradacaq.

Yaranmış indiki vəziyyətdə Azərbaycanın üzünü Qərbə çevirməyə "məcbur olacağını" bəyan edən Xzmalyan Avropanın Bakı ilə bağlı iqtisadi rıçaqlarından İrəvanın öz siyasi məqsədləri üçün istifadə etmək üçün hərəkətə keçməyin vacibliyini bildirir. Erməni "partiya" sədrinin sözlərinə görə, "...bunun üçün iş lazımdır və ümid edirik ki, Ermənistanın Avropa Partiyasının sədri kimi, elə mən də başda olmaqla biz bunun öhdəsindən gələcəyik".

...Burda ermənilərə, əslində rişxəndlə də olsa, "qolunuza çöpdən dirək" deyib keçmək də olardı. Amma, qeyd edilməlidir ki, burada ermənininin həsədlə "Rusiyanın böhranla təcrid" olunmasını, dediyimiz kimi, az qala şadyanalıqla təqdim etməyə çalışması heç cür başa düşülən deyil. Maraqlıdır, görən Rusiyanın hər hansı iqtisadi böhranla üzləşməsinin Azərbaycandan daha çox Ermənistanı yaşanacağını erməni "siyasətçi" qanmırmı?

Yəni doğrudanmı, özünə siyasıtçi deyən biri bu günkü ermənilərin ayaqda qalmasında Rusiyaya minnətdar olmalarını yaddan şıxarır? Məgər o, bu gün "Ermənistan iqtisadiyyatı"nın daha çox Rusiyadan göndərilən

...Yeri gəlmişkən, bu arada ermənilərin ən çox "müzakirə" etdikləri, daha doğrusu, onları "hiddətləndirən" əsas məsələlərdən biri də Belarus prezidenti Aleksandr Lukaşenkonun "...bu gün Ermənistannın heç kimə lazım olmaması" ilə bağlı səsləndirdiyi fikirlərdir.

O da maraqlıdır ki, bəzi ermənilər Lukaşenkonun bu bəyanatının səbəblərini anlamağın vacibliyi barədə müxtəlif fikirlər səsləndirirlər. Məsələn, qəribə də olsa, bu gün bir qisim ermənilər Belarus prezidentinin səsləndirdiyi fikirlərin təkcə tənqidə deyil, həm də təşəkkürə layiq olduğunu etiraf etməlıridir. Niyə?

"...Əvvəla, ona görə ki, o, təkcə müasir Ermənistana münasibətini ifadə etmir. Əslində, demək olar ki, bu gün dünya liderlərindən heç biri Lukaşenkodan fərqli düşünmür. Sadəcə olaraq hamı riyakarcasına susur və o, təhqiredici də olsa, birbaşa danışır.

İkincisi, Belarus lideri ən azı ona görə təşəkkürə layiqdir ki, o, demək olar ki, ermənilərin böyük əksəriyyətinin arasında erməni "təsib"ini oyatmış oldu".

...Ay səni, xətakar. İndi bundan sonra "təsib"ini oyatdığın ermənininin qabaölnda dur, görüm necə duracaqsan...

P.S: ... "təsib"in bizim dildə mənası çağırış deməkdir.

***Ağasəf Babayev***




# Peyvənd sertifkatı göstərmək tələbi də aradan qaldırılacaq

**Danimarka və Norveçdən sonra İsveç də Covid məhdudiyyətlərinin əksəriyyətini aradan qaldırmağa hazırlaşır. SİA xarici mətbuata istinadən xəbər verir ki, "Omicron"un yoluxucu, lakin "daha yüngül" variantı üstünlük təşkil etdiyinə görə, Avropanın bəzi dövlətləri onu "yeni mərhələ" kimi təsvir edirlər.**

İsveç bütün anti-Covid məhdudiyyətlərinin qaldırılacağını açıqlayıb. Bar və restoranların bağlanma vaxtı saat 23:00-a qədər götürüləcək və tədbirlər yumşaldılacaq. İctimai nəqliyyatda yalnız pik saatlarda maska taxmaq tövsiyə olunacaq. Bundan başqa, ictimai yerlərə daxil olmaq üçün peyvənd sertifkatı göstərmək tələbi də aradan qaldırılacaq.

***Qönçə Quliyeva***

# Rus ekspert:
## "Ermənistan xuliqan kimi davranır"

### İqor Korotçenko: "ABŞ və Fransanın Azərbaycana qarşı qeyri-dost siyasət yeritdiyi göz qabağındadır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Rusiyanın nüfuzlu politoloqu "Milli müdafiə" jurnalının baş redaktoru "Moskva-Baku" portalına müsahibəsində Fransanın Azərbaycanla Ermənistan arasında vasitəçiliyini, bunun Parisə nə üçün lazım olduğunu şərh edib, Moskvanın potensial reaksiyasından və İrəvanın siyasətdə özünü niyə qeyri-qanuni aparmasından danışıb və qeyd edib ki, Ermənistanın mövqeyi qətiyyən qəbuledilməz yoldur.**

- Azərbaycan noyabrın 16-da sərhəddə təxribat zamanı əvvəllər saxlanılan daha 8 erməni hərbçisini Ermənistana təhvil verib. Bu, Fransa prezidenti Makron və Aİ-nin vasitəçiliyi ilə baş verib. Aİ, Fransa nümayəndələrinin bu transfer məhbusların qarşısında gülümsəyərək bayraqlarını dalğalandırması daha çox şouya bənzəyirdi. Mən başa düşdüyümə görə, Fransanın bu cür fəaliyyəti apreldə keçiriləcək prezident seçkiləri ilə bağlıdır.

-Makron üçün bu, həqiqətən də prezident seçkilərində iştirak baxımından mühüm addımdır, Fransanın erməni vətəndaşlarının səsləri uğrunda mübarizə özünü belə göstərir. Respublikaçılar partiyasından prezidentliyə digər namizəd Valeri Pekressin Fransadakı erməni diasporunun dəstəyini almaq üçün "arxa qapıdan" Qarabağ bölgəsinə necə getdiyini xatırlayırıq. Aydın məsələdir ki, Makron da elektoratın bu təbəqəsi uğrunda mübarizədə fəal olmalıdır. Ona görə də onun Azərbaycanla Ermənistan arasında vasitəçilikdə maraqlı olması Fransanın erməni lobbisinə öz "effektivliyini" göstərməklə bağlı idi. Bu bir tərəfdən.

Digər tərəfdən, Parisin Avropa İttifaqında əsas siyasi rollardan birini oynadığını və müəyyən nailiyyətlər əldə etdiyini, xüsusən də Azərbaycan və Ermənistan liderləri ilə keçirilən video sammitin nəticələrindən sonra göstərmək istəyirdi.

Bundan başqa, Fransa 2-ci Qarabağ müharibəsinin nəticələrindən sonra Rusiyanın Ermənistan-Azərbaycan nizamlanmasında aparıcı rol oynamağa başlaması faktını qəbul etmirdi.

Yeri gəlmişkən, Makronla Putinin Kremldəki görüşü və Rusiya üçün təhlükəsizlik təminatlarının müzakirəsi və Ukrayna məsələsi də Fransa liderinin siyasi məqamlar toplusudur, onun şəxsi piarıdır. Biz bilirik ki, "siyasi ağır çəkili" Merkelin dövründə Fransa Aİ-də həmişə kənarda olub. İndi Almaniyada yeni kansler vəzifəyə keçdikdən sonra Avropada siyasi qüvvələr nisbəti dəyişib. Və Makron həm özünü, həm də Fransanı Avropa İttifaqında ilk rollara çıxarmaq fürsəti gördü.

Putinlə görüş onun diplomatik təşəbbüsü idi, amma praktiki dildə desək, Makron 5 saatlıq danışıqlardan və gözəl sözlərdən başqa heç nə əldə edə bilmədi. Amma bütün bu nəticələri- həm Rusiya ilə, həm də Cənubi Qafqazla- indi o, şəxsi nailiyyətləri, Fransanın nailiyyətləri kimi təqdim etməyə, siyasi və PR baxımından mümkün qədər kapitallaşdırmağa çalışacaq.

Təbii ki, Fransa prezidentinə etibar etmək olmaz. Biz xatırlayırıq ki, 2-ci Qarabağ müharibəsi zamanı Fransa və şəxsən Makron Ermənistana qarşı açıq dəstək mövqeyi nümayiş etdirdilər. Müharibədən sonra da indiyə qədər.

***- Amma müəyyən mənada Fransanın nailiyyətləri var... Sualım var ki, Fransa və Aİ niyə indi Azərbaycanla Ermənistan arasında humanitar vasitəçilikdə Rusiya ilə bir yerdə özünü tapmayıb?***



- Diplomatiyadır. Mən xarici siyasətin planlaşdırılması və Rusiyanın Cənubi Qafqazda xarici siyasəti ilə bağlı hər hansı qərarın hazırlanması ilə məşğul deyiləm və ona görə də sizinlə eyni sualı verə bilərəm. Aydındır ki, Rusiya Xarici İşlər Nazirliyi hazırda ABŞ, NATO və Ukrayna ilə danışıqlara fokuslanıb. Bunun fonunda Fransa və Avropa İttifaqı Cənubi Qafqazda addım-addım təşəbbüs göstərir.

***- Yəni, Rusiya Ermənistan-Azərbaycan nizamlanmasına sakit yanaşır, Moskvada belə bir hiss varmı ki, bu məsələdə hər şey normal gedir?***

- Gündəlik işlər davam edir. Amma hər şeyin qaydasında olduğunu söyləmək, məncə, axmaqlıq və qərəzlilik olardı. Birmənalı şəkildə aydın olan odur ki, Azərbaycanın Ermənistana münasibətdə dəfələrlə atdığı xoşməramlı addımlar İrəvanın cavab addımları ilə müşayiət olunmur. Məncə, bu günün əsas problemidir. Birtərəfli hərəkət olduğu ortaya çıxır.

Azərbaycan ərazisində əllərində silah-sursatla saxlanılan nə qədər erməni hərbçisini Bakı son aylarda İrəvana köçürüb? Ən azı onlarla. Bəs Bakı Ermənistan XİN-in növbəti dəfə səsləndirdiyi biabırçı bəyanatlardan başqa cavab olaraq nə aldı? Heç nə. Bəs burada Avropa diplomatiyası hanı, Fransa hanı? Yaxşı, Azərbaycan öz ərazisində saxlanılan erməni əsgərlərini təhvil verir. Sual: 1-ci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi nə vaxt bəlli olacaq? Buna cavab olaraq Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatları etik və diplomatik baxımdan qəbuledilməzdir. Yaxşı, bütün bunlar nə vaxta qədər davam edəcək? Deyəsən, Ermənistan XİN-də ancaq dəlilər oturub. Lakin ola bilsin ki, 2020-ci ildə parlamentin spikeri olarkən baş nazir Paşinyan tərəfindən Üçtərəfli Bəyanat imzaladıqdan sonra küylü izdiham tərəfindən başından döyülərək öldürülən Ermənistanın hazırkı xarici işlər naziri Ararat Mirzoyan müəyyən qədər itki verib, onun zehni funksiyaları zəifləyib. Amma bu yuxu deyil.

Biz başa düşürük ki, İrəvanın 4000-ə yaxın itkin düşmüş azərbaycanlının taleyi barədə nə üçün heç nə demək istəmir, çünki onlar 1-ci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən vəhşicəsinə öldürülüblər. Əgər indi bu məxfi qəbirlər tapılarsa, insanların qalıqları eksqumasiya edilərsə, o zaman istənilən müstəqil məhkəmə-tibbi ekspertiza ölən azərbaycanlıların ölümünün zorakılıq xarakterini göstərəcək. Aydındır ki, başında güllə yaralarının izləri olacaq. İnsanlar güllələnib, vəhşicəsinə işgəncələrə məruz qalıb, qətlə yetirilib. Bütün bunlar istər-istəməz üzə çıxacaq və Ermənistan üçün bu, hər cəhətdən son dərəcə sərfəli deyil və həqiqətin üzə çıxarılması prosesini hər cür şəkildə dayandıracaq. Azərbaycan həbsdə olan bütün erməni əsgər və zabitlərini təhvil versə belə, buna cavab olaraq İrəvan tərəfindən eyni qeyri-konstruktiv siyasət olacaq.

***- Ermənistan tərəfindən edilən bütün bunlar həqiqətən də kifayət qədər anlaşılmaz görünür. Çünki Azərbaycan da itkin düşmüş şəxslərlə yanaşı, ölənlərin dəfn yerləri ilə bağlı məsələnin müzakirə olunduğunu bəyan edib, Makron təsdiqləyib. İndi də Ermənistan XİN bəyan edir ki, bu məlumat birtərəfli qaydada Azərbaycana ötürülməyəcək. Bu həm dürüstlük, həm də sülhə doğru hərəkət baxımından yanlışdır...***

- Mən həmişə demişəm ki, baş verənlərdən çıxış edərək Ermənistana qarşı məcburi tədbirlərə ehtiyac var. Bunlar siyasi təzyiq tədbirləri, iqtisadi sanksiyalar ola bilər. Belə olan halda mən İrəvanı, indiki Ermənistan hakimiyyətini özünə gətirmək üçün hərbi təsir metodunun deyil, siyasi, iqtisadi təsirin tərəfdarıyam.

Aydındır ki, Qarabağda qanunsuz erməni silahlı birləşmələri və ya dövlət sərhədində Ermənistan hərbi qulluqçuları tərəfindən hansısa silahlı təxribatlar törədildikdə, Azərbaycan özünümüdafiə məqsədilə buna cavab olaraq güc tətbiq etmək məcburiyyətində qalır. Azərbaycanın isə bu məsələdə mövqeyi qüsursuzdur. Biz yaxşı bilirik ki, Bakıda məsuliyyətli, başqa məsələlərlə yanaşı, ölkənin siyasi imicini də düşünən hakimiyyət var. Ona görə də Azərbaycanın qərarları aydındır, düşünülmüşdür və beynəlxalq hüquq normalarına əsaslanır.

Ermənistan özünü son dərəcə məsuliyyətsiz aparır. Onu ya bağışlayırlar, bir az məzəmmət edirlər, ya da hətta erməni şıltaqlığına göz yumurlar. Silahlı təxribatlar və istənilən iyrəncliklər Ermənistandan çıxır- hər şey ördək kürəyindən tökülən su kimidir! Çünki Qərbdə himayədarlar var. Erməni diasporu var. Mən deyərdim ki, Ermənistan Cənubi Qafqazda o qədər xırda hərbi-siyasi qopnikdir ki, onu Fransa və ABŞ timsalında "böyüklər"in ört-basdır edəcəklərini əsas götürərək müxtəlif hiylələrə əl atırlar.

Azərbaycan isə ölkənin nüfuzunun xəritədə olduğunu anlayaraq, beynəlxalq hüquq normaları əsasında davranır. Dövlət rəhbərlərinin, xarici işlər nazirliklərinin bəyanatlarının tonuna nəzər salsaq, çox böyük fərq görərik: Azərbaycan təmsilçiləri vəziyyəti dərk edərək nə dərəcədə məsuliyyətlə bəyanatlar verirlər və erməni rəsmi natiqlər və siyasətçilər özlərini nə qədər qaba, riyakar aparırlar. İstənilən obyektiv insan bunu görməməzlikdən gələ bilməz. Bu, mənə 40-50-ci illəri təsvir edən filmləri xatırladır, kiçik, çılpaq pankların dişlərində siqaret və gözlərinin üstünə çəkmiş papaq, kimisə "göstərmək" cəhdi. Yaxşı, Ermənistan bu gün özünü belə aparır, bu, tamamilə qəbuledilməzdir. Onu cilovlamaq lazımdır, amma yox, onlar həvəsləndirilir. Bu, böyük heyrətə səbəb olur.

Amma gec-tez Ermənistan sivil davranmağa məcbur olacaq, necə ki, Azərbaycan səlahiyyətliləri edir, amma necə, hansı üsullarla- bunu vəziyyət və siyasi qərarlar diktə edəcək.

***- Yaxşı, bəs Azərbaycanın Aİ vasitəçiliyinə nə ehtiyacı var?***

- Bakı və İrəvan arasında bütün əsas razılaşmalar Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatında, 2021-ci il yanvarın 11-də Moskvada keçiriləcək sammitdə və noyabrın 26-da Soçidə keçiriləcək növbəti sammitlərdə təsbit olunub. Bundan sonra 2021-ci il dekabrın 14-də Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin sammiti keçirilib. İstənilən qarşılıqlı əlaqə formatı vəziyyəti irəlilətməyə yönəlib. Azərbaycan isə bundan istifadə edir. Bakının məqsədi və vəzifəsi sadədir- Ermənistanın yaratdığı başağrılarından yayınmadan bütün mövcud problemləri həll etmək, sərhədin delimitasiyası və demarkasiyası məsələsini həll etmək, nəqliyyat kommunikasiyalarını açmaq və dinc yaşamaq.

İrəvanın tamam başqa məntiqi var. Erməni elitası başa düşür ki, əgər ölkə dəqiq müəyyən edilmiş sərhədlər daxilindədirsə, belə bir Ermənistan nəyə lazımdır, kimə lazımdır? "Şou göstərməlidir" başqa heç cür uğur qazana bilməz. Ermənistan da heç ermənilərin özünə lazım olmayacaq, onsuz da kütləvi şəkildə mühacirət edəcəklər. Ona görə də İrəvanın qondarma "DQR"in qalıqlarının statusu məsələsini və bir çox başqa məsələləri ortaya qoymaq istəyi başa düşüləndir. Ermənistan artıq bu cür davranmağa öyrəşib, bu ölkənin siyasi mədəniyyəti belədir, siyasi elitası belədir. Əks halda bacarmazlar. Mən buna hərbi-siyasi dələduzluq deyirəm. Təəssüf ki, bu, müasir Ermənistan siyasətinin xarakterik xüsusiyyətidir.

***- Eyni köhnə sual: Qərb Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı təşəbbüsü Rusiyadan almağa çalışır, yoxsa bu, onun qlobal strateji vəzifəsi deyil, situasiyadır - məsələləri burada və indi həll etməkdir?***

- Rusiya ilə Qərb arasında geosiyasi rəqabət var. Bu rəqabətdə Xəzər regionu və Cənubi Qafqaz mühüm yer tutur- planetin əsas geosiyasi regionlarından biri kimi. Bundan əlavə, bu, böyük enerji ehtiyatlarının cəmləşdiyi bölgələrdir. Ona görə də burada dünya güc mərkəzləri arasında rəqabət ancaq böyüyür.

Eyni zamanda, deyərdim ki, Rusiyanın mövqeyi Azərbaycanın mövqeyi ilə demək olar ki, 100 faiz üst-üstə düşür: bizə regionda sülh və əmin-amanlıq, nəqliyyat kommunikasiyalarının qarşısının alınması, dövlətlərin iqtisadi qarşılıqlı əlaqəsi lazımdır. Cənubi Qafqazda nə qədər sakitlik olarsa, Rusiya üçün bir o qədər yaxşı olar, Şimali Qafqazda isə bir o qədər sabitlik olar.

ABŞ və Fransanın səsləndirdiyi bəyanatlara gəlincə, bu dövlətlərin Azərbaycana qarşı qeyri-dost siyasət yeritdiyi göz qabağındadır. Onlar Bakıya təzyiq göstərmək üçün separatçı "kötük"ü Qarabağda saxlamaq istərdilər. Bəli, Vaşinqton və Paris mühüm oyunçulardır, xüsusən də ABŞ. Qeyd etmək vacibdir ki, həm ABŞ-da, həm də Fransada son dərəcə nüfuzlu, maliyyə cəhətdən güclü, hakimiyyətin ən yüksək eşelonlarına nüfuz etmiş və bu və ya digər telləri fəal şəkildə dartmaqda olan nəhəng erməni diasporları var. Və bu baxımdan biz həm Fransa Senatında, həm də ABŞ Konqresində ört-basdır edilməmiş erməni lobbiçiləri görürük. Biz başa düşməliyik ki, Vaşinqton və Parisin bir sıra məsələlərdə siyasəti erməni maraqlarına tabedir.

- Rusiya yenidən fəallaşmalı və Aİ-nin vasitəçilik addımlarını əngəlləməlidir, çünki Ermənistanda Fransa və Aİ bayraqlarını dalğalandıran gülümsəyən diplomatlarla NATO təyyarələrinin şəkli Qərb üçün yaxşı piar mövzusudur. Amma bu, Rusiya üçün yaxşı deyil...

-Bu şəkil indi fransız ermənilərinə göstəriləcək- görün Makron nə qədər yaxşıdır! Xanım Pekress Qarabağa getdi, "danışdı", lakin Makron konkret problemi həll etdi- o, erməni hərbçilərin geri qayıtmasına nail oldu. Əlbəttə, biz siyasətin necə aparıldığını başa düşürük- bu, olduqca prinsipial deyil.

***- Ancaq bu, həm də anti-Rusiya əhval-ruhiyyəsini təşviq etmək cəhdidir...***

- Bəs bu gün harada anti-Rusiya əhval-ruhiyyəsi yoxdur? Bu indi Ermənistanda da var. Yeri gəlmişkən, görün indi Belarus prezidenti Aleksandr Lukaşenkonun bu yaxınlarda verdiyi müsahibəsində nə deyir: Ermənistan heç kimə lazım deyil və gec-tez o, İttifaq dövlətinə qoşulacaq. Biz rəsmi səviyyədə də daxil olmaqla, şər niyyətli erməni şərhlərinin çox olduğunu görürük. Amma Belarus prezidenti sadəcə olaraq Ermənistanın müasir dünyada rolunu və yerini göstərdi. Ermənistan bu gün siyasi, hərbi potensial, iqtisadi baxımdan heç nə deyil.

Eyni zamanda, erməni diasporu hakimiyyətin üzünə "erməni eynəyi" taxmaq istədiyi ölkələrdə son dərəcə dağıdıcı rol oynayır. Haradasa bu, işləyir. Məsələn, ABŞ və Fransada. Rusiyada ümid edirəm ki, bu cür cəhdlərin qarşısı qətiyyətlə alınacaq.

***-Bu yaxınlarda Azərbaycanın Xocalı faciəsinin 30-cu ildönümü qeyd olunacaq...***

- Bu, amansız, qeyri-insani cinayətdir. Təbii ki, bu, soyqırım aktıdır, dinc əhalinin, o cümlədən qadınların, uşaqların, qocaların qəsdən məhv edilməsidir. Belə cinayətləri bağışlamaq olmaz. Bilmirəm, Dövlət Duması ölkəmizdə necə reaksiya verəcək, Xocalı hadisələrinin soyqırım aktı kimi tanınması ilə bağlı Dövlət Dumasının qərar layihəsini təqdim edəcək deputatlar olacaq, yoxsa qarşılıqlı qisas alınmasını tşvuq etməmək üçün bundan çəkinəcəklər? Dövlət Dumasının üzvü olsaydım, belə bir təklif verərdim. Amma mən politoloq və ictimai xadiməm, qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququm yoxdur. İstənilən halda insanlığa qarşı törədilən bu cinayətin heç bir bəraəti yoxdur.

Rusiya ictimaiyyəti Xocalı hadisələrinin soyqırım kimi rəsmi tanınmasına çalışacaq. Hesab edirəm ki, Xocalı soyqırımında iştirak edən konkret şəxslərə qarşı məhkəmə qərarları və rəsmi ittihamlar lazımdır. Ermənistan bu problemi ört-basdır etmək, susdurmaq, təhrif etmək, yanlış təqdim etmək üçün hər şeyi edəcək. Buna heç bir şübhə yoxdur. Ancaq bu cür cinayətlər üçün məhdudiyyət müddəti yoxdur: günahkarlar müəyyən edilməli, adları çəkilməli və cəzalandırılmalıdır.

***Tərcümə - Elçin Bayramlı***

# 2022-ci ildə ipoteka kreditlərinin həcmi 20 faiz artırılacaq

"Jurnalistlərin güzəştli ipotekadan istifadə imkanları məhz onların mənzil problemləri həlli baxımından vacibdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, güzəştli ipoteka aşağı faizlə təklif olunan ipoteka kreditləri və dövlət büdcəsi hesabına maliyyələşdirilir: "Jurnalistərin bu imkandan faydalanması həm də onların sosial təminatının gücləndirilməsi baxımından vacib hesab olunur. Eyni zamanda güzəştli ipoteka 4 faizlə 100 min manat maksimum məbləğ olmaq şərti ilə, eləcə adi ipoteka və digər daxili ipoteka kreditlərinə nisbətən daha az ilkin ödəniş məbləği ilə təklif olunur. 2022-ci ildə dövlət büdcəsinin ipoteka kreditlərinin verilməsinə ayrılan vəsaitin həcmi də 20 faiz artırılacaq. Bu da jurnalistlərin daha çox kredit əldə etmək imkanları deməkdir. Nəzərə alaq ki, jurnalistlərin bir qismi əmək müqaviləsi ilə çalışmır, xidməti müqavilə ilə çalışır. Ama qanunvericilik xidməti müqavilə ilə çalışan vətəndaşlarımızın ipotekaya mücariət hüququ verir. Ona görə xidmət müqaviləsi ilə çalışan vətəndaşlarımız ipoteka kreditlərinə müraciət edib istifadə etməsi məqsədə uyğun olardı. Təbii ki, bəzi jurnalistərin xitməti müqavilə ilə çalışdıqları halda əməkhaqqı da yüksək deyil. Mövcud qanunvericiliyə əsasən həmin jurnalistlər öz ailəvi üzvləri ilə birgə müraciət edib, kredit götürərək mənzil alma imkanına malikdirlər. Ona görə də mövcud qanunvericiliyin və kreditləşmə ilə bağlı qaydaların yaratdığı imkanlardan faydalanmaqla jurnalistlərin güzəştli ipoteka kreditlərinə müraciət etməsi məqsədəuyğun olardı. Çünki güzəştli ipoteka kreditləri mənzil problemlərinin həlli baxımından vacibdir".



**Abutel İlhamqızı**

# "Mançester Siti" dünyanın ən yaxşı komandası deyil"



**"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola "şəhərlilər"in dünyanın ən yaxşı klubu hesab edilməsi barədə fikirlərə münasibət bildirib.**

Qol.az xəbər verir ki, 51 yaşlı mütəxəssis Premyer Liqanın 24-cü turunda "Brentford"la matçdan (2:0) sonra jurnalistlərə açıqlamasında bu fikirlərlə razılaşmadığını bildirib: "Biz dünyanın ən yaxşı komandası deyilik. Yer kürəsinin ən yaxşısı Çempionlar Liqasının son qalibi "Çelsi" və ya Cənubi Amerika çempionu "River Pleyt"dir.

Qeyd edək ki, "Mançester Siti" hazırda Premyer Liqanın turnir cədvəlində 60 xalla liderdir.

## Dünyanın ən böyük qara almazı 4,3 milyon dollara satıldı

"Sotheby's" satış evinin keçirdiyi hərracda 555,55 karatlıq "Enigma" adlı qara almaz 3,16 milyon funt-sterlinqə (4,3 milyon dollar) satılıb və onun pulu kriptovalyuta ilə ödənilib. BBC News telekanalının məlumatında deyilir ki, "Sotheby's" satış evi alıcının adını açıqlamasa da, sonradan məşhur kriptovalyuta həvəskarı, iş adamı Riçard Hart özünün "Twitter" səhifəsində almazı aldığını bildirib.

Qara almazı satışa çıxaran şəxs 20 il almazın sahibi olub və qiymətli daş bu müddət ərzində heç bir yerdə sərgilənməyib.

"Enigma" indiyədək Braziliya və Mərkəzi Afrikada çox nadir hallarda aşkarlanan "karbonado" növünə aiddir. Bu növün tərkibində yalnız meteoritlərdə rast gəlinən "osbornit" mineralı olduğundan onların kosmik mənşəyi barədə versiya var. Həmçinin belə bir versiya da irəli sürülür ki, qara almazlar Yer kürəsində 2,6-3,2 milyard il bundan əvvəl, dinozavrlar yaranmazdan öncə əmələ gəlib.

## "Forbes" açıqladı: Bu rejissor bir ildə 580 milyon dollar qazanıb

Yeni Zelandiyalı rejissor Piter Cekson təqvim ili ərzində 580 milyon dollar qazanıb və bu göstəriciyə görə dünyanın digər məşhurları arasında birinci yeri tutub. Belə ki, şou-biznesin ən çox qazanc əldə edən nümayəndələrinin siyahısı çərşənbə günü "Forbes" jurnalında dərc olunub.

"Üzüklərin Rəbbi" (The Lord of the Rings) trilogiyasının rejissoru Piter Cekson noyabrın 10-da özünün kino səhnəsində ən tanınmış studiyalardan biri olan Weta Digital xüsusi effektlər studiyasını Amerikanın proqram təminatı üzrə Unity Software kompaniyasına 1,6 milyard dollara satdığını elan etmişdi. Məhz bu sövdələşmə "Forbes"in siyahısında Ceksonu liderliyə yüksəldib, onu, həmçinin Stiven Spilberq və Corc Lukasdan sonra üçüncü milyarder rejissor edib.



Siyahıda ikinci yeri amerikalı ifaçı Bryus Sprinqstin tutub. Nəşr qeyd edir ki, müğənni öz mahnılarının bütün kataloqunun hüququnu "Sony" kompaniyasının musiqi bölməsinə 500 milyon dollara satıb.

İlk beşlikdəki digər üç yerdə müvafiq olaraq amerikalı rep ifaçısı Cey Zi (340 milyon dollar), "Qaya" təxəllüsü ilə tanınan aktyor və restler Dueyn Conson (270 milyon dollar) və amerikalı müğənni Kanye Uest (235 milyon dollar) qərarlaşıb. Hesabat dövründə şou-biznesin ən çox qazanc əldə edən 25 təmsilçisinin ümumi gəliri 4,4 milyard dollar təşkil edib.

## Diqqət: Ürək çatışmazlığına işarə edən GİZLİ SİMPTOMLAR

**Ürək orqanizmdə nasos funksiyasını yerinə yetirərək qanı orqan və sistemlərə çatdırır. Qan orqanizm boyu dövr edir, orqanizmi oksigen və qidalı maddələrlə təmin edir. Ürəyin nasos funksiyası pozulduqda ürək çatışmazlığı inkişaf edir.**

Bu zaman orqanizm ona lazım olan miqdarda okdigen və qidalı maddələri ala bilmir və bu da orqanizmdə ciddi pozulmalara səbəb olur, hətta insanın həlak olmasına gətirib çıxarda bilər.

Təəssüf ki, bir çox hallarda ürək çatışmazlığı gizli inkişaf edir və ilkin mərhələlərdə özünü heç bir xarakterik simptomla büruzə vermir.

Saglamolun.az xarici KİV-lərə istinadla bildirir ki, həkimlər ürək çatışmazlığına işarə edən bəzi xarici simptomlarını bilməyi və onlara vaxtında fikir verməyi çağırır.

Belə ki, amerikalı həkim hematoloq Ceffri Dlott (Jeffrey Dlott) müsahibəsində bildirib ki, soyuq tər və qolda ağrı və narahatlıq ürək çatışmazlığına işarə edə bilər.



Ürək çatışmazlığının digər simptomları arasında:

- sinədə ağrı və sıxılma hissi,
- qollar, sol çiyin, çənə, dirsəklər və kürəkdə ağrı,
- təngənəfəslik,
- ürəkbulanması, zəiflik,
- başgicəllənməsi.

Həkim Ceffri Dlott bildirib ki, yüksək təzyiq, qanda xolesterinin yüksək səviyyədə olması, siqaret çəkmək ürək xəstəliklərinin əsas risk faktorlarıdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**